12 dekabr Ümummilli Lider Heydər Əliyevin anım günüdür

47 (1302)

7-13 dekabr 2023-cü il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

# İLHAM ƏLİYEV: "BİZ REGİONA SÜLHÜ ARTIQ GƏTİRMİŞİK"



Dekabrın 6-da ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu keçirilib. Tədbirdə 30 ölkəni təmsil edən 60 xarici ekspert iştirak edib.

"Biz regiona sülhü artıq gətirmişik. Biz onu müharibə yolu ilə etmişik. Məncə, buna daha geniş diqqət yetirilməlidir. Bu, təkcə Qafqazla bağlı deyil. Sülhə hərbi yolla necə nail olmaq olar, biz bunu nümayiş etdirdik".

Bu fikirləri Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirib.

İşğal dövründə Minsk qrupunun həmsədrlərindən münaqişənin hərbi yolunun olmaması ilə bağlı vahid mövqe eşitdiyini vurğulayan dövlətimizin başçısı bildirib: *"Biz sübut etdik ki, hər üç ölkə yanılırdı. Dövlətçilik tarixlərinə, beynəlxalq təcrübələrinə və onların BMT Təhlükəsizlik Şurasının üzvləri olmalarına baxmayaraq, onlar yanılırdılar. Bu, yanlış qiymətləndirmə idi. Azərbaycana müəyyən bir mesaj idi ki, siz hərbi yola əl atsanız buna müvəffəq olmayacaqsız. Lakin biz bunu sübut etdik ki, bu münaqişənin hərbi yolu var. Bu münaqişə 3 il bundan əvvəl həll edildi".*

# "AZƏRBAYCAN BÜTÜN MƏSƏLƏLƏRİ BMT NİZAMNAMƏSİNİN 51-Cİ MADDƏSİNƏ UYĞUN OLARAQ HƏLL EDİB"




"Bu gün biz bir neçə beynəlxalq çağırışla üzləşirik. Təəssüf olsun ki, biz tərəfdaş hesab etdiyimiz bəzi ölkələrlə müəyyən anlaşılmazlıq yaşayırıq".

Bu fikirləri Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirib.

*"Biz öz mövqeyimizi onlara çatdırırıq və bütün ölkələrə qarşı beynəlxalq hüququn şamil olunmasının vacibliyini qeyd edirik. Bu, selektiv olmamalıdır, onun həyata keçirilməsi hamı üçün məcburidir. Azərbaycan bütün məsələləri BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə etməklə həll edib. Bu, Azərbaycanın suveren hüququ idi ki, öz ərazisinə tam şəkildə nəzarəti həyata keçirsin"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

# "SUVERENLİYİMİZİ BƏRPA EDƏNDƏ QARABAĞDA ÇOXSAYLI ERMƏNİ HƏRBİ KONTİNGENTİ VAR İDİ"

"Biz suverenliyimizi iki il yarım bundan əvvəl bərpa edəndə gördük ki, Qarabağda böyük həcmdə çoxsaylı erməni hərbi kontingenti var və onlar heç bir beynəlxalq hüququn prinsiplərinə məhəl qoymurdular". Bu fikirləri Prezident İlham Əliyev ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və Çətinliklər" Forumunda bildirib.

*"Biz ümid edirdik ki, bu məsələ öz həllini tapacaq. Biz dərk edirdik ki, bu, anormal vəziyyətdir və İkinci Qarabağ müharibəsi bitəndən sonra bizim mövqeyimiz aydın idi. Qarabağda yaşayan insanların iki seçimi var - onlar ya Azərbaycan vətəndaşları olurlar və onların bütün hüquqi çərçivələri yaradılır və ya yaşayış üçün digər yerləri seçirlər. Bunun başqa yolu yox idi"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

# "ERMƏNİSTAN BEŞ MƏLUM PRİNSİPİ QƏBUL ETMƏYƏ YAXINDIR"

"Bizim tərəfimizdən antiterror tədbirləri planlaşdırılmamışdı. Ən azı 2020-ci ilin noyabrında belə bir şey yox idi, mən bunu çox aydın şəkildə deyə bilərəm". Bu fikirləri Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda ifadə edib.

İki ölkə arasında imzalanacaq sülh sazişinin beynəlxalq ekspertlər tərəfindən də lazımi şəkildə araşdırılmalı olduğunu deyən dövlətimizin başçısı əlavə edib: **"Otuz ildən artıq işğalı, öz ərazisinin tamamilə dağıdılmasını, etnik təmizləməni və əziyyətləri görən ölkə olaraq biz beynəlxalq vasitəçilərə yox, məhz Ermənistana əl uzatdıq".** Sülh müqaviləsinin prinsiplərini tərtib edib Ermənistana göndərildiyini, lakin yenə də sükut olduğunu qeyd edən Prezident İlham Əliyev bildirib: *"Sonra beş məlum prinsip açıqlandı. İndi görünür ki, Ermənistan bunları qəbul etməyə yaxındır. Onlar bunu baza kimi götürə bilərlər. Bunu bir neçə il əvvəl etsəydilər, əlbəttə ki, antiterror əməliyyatına ehtiyac qalmazdı. Bu tarixdir və onu göstərir ki, sülhü təşviq edən tərəf məhz Azərbaycan idi, Ermənistan deyil".*

# BİZ KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRİ LAYİQLİ İŞ YERLƏRİ İLƏ TƏMİN EDƏ BİLƏRİK

"Biz keçmiş məcburi köçkünləri layiqli iş yerləri ilə təmin edə bilərik, şərait yarada bilərik. Yeri gəlmişkən söyləyim ki, həmin sahələrdə məşğulluq məhz vacib məsələdir. Bir halda ki, biz qayıdış prosesini planlı həyata keçirirk və qayıtmış insanların əksər hissəsi artıq bu iş yerlərinə malikdir, bu, onu göstərir ki, tətbiq edilmiş yanaşma tamamilə əhatəlidir". Bu sözləri Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Forumda çıxışı zamanı deyib.

İkinci Qarabağ müharibəsindən sonrakı illər ərzində Qarabağ ermənilərini öz vətəndaşlarımız hesab etdiyimizi xatırladan dövlətimizin başçısı bildirib: *"Bu, hər hansısa separatçı liderlər tərəfindən manipulyasiya predmetinə çevrildi. Biz isə onlara elə bir şərait yaratmağa hazır olduğumuzu bildirdik ki, onlar həmin o sahədə qalıb yaşaya bilərdilər və bu, - artıq söylədiyim kimi,- beynəlxalq hüquqa tam uyğun idi. Təbii ki, onlar bu qaydalara uyğun olaraq Azərbaycan vətəndaşlığı üçün müraciət edə bilərdilər. O ki qaldı, onların təhlükəsizliyinə, onların hüququna, bu məsələ də öz həllini tapmışdır. Təhlükəsizlik Azərbaycanın Konstitusiyasına və Azərbaycanın beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq təmin edilməlidir".*

# QARABAĞDA ƏSAS MANEƏ BASDIRILMIŞ MİNALARDIR

"Qarabağda əsas maneə basdırılmış minalardır. Bundan başqa, bizim üçün hər hansı bir maneə yoxdur. Biz bunun üçün maliyyə ehtiyatlarımızı səfərbər etmişik".

Bu fikirləri Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirib.

**"Qarabağın yenidən qurulması bizim sərmayə proqramımızın əsas hissəsini təşkil edəcək. Qarabağ bizim üçün ən yüksək prioritetdir. Çünki insanlar da öz yerlərinə qayıdacaqları vaxtı gözləyirlər"**, - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

# "OLA BİLƏR Kİ, CƏNAB BOREL YUXULAR GÖRÜR"

"Hətta ermənilərin özləri etiraf edirlər ki, bu cür təcrübəli Avropa diplomatı (Cosep Borel – red.) yalan danışır. Deyirlər ki, Qarabağı 100 min insan tərk edib, 150 min deyil. Yəni, cənab Borel bu tərzdə davam etsə, bir aydan sonra 200 min adam deyəcək. Ola bilər ki, cənab Borel yuxular görür. Bu, tamamilə qəbuledilməzdir. Bu, təkcə rəqəmlərlə bağlı manipulyasiya deyil, bu, Azərbaycana qarşı ittihamlardır, bizim etmədiyimizlə bağlı ittihamdır". Bu sözləri Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Forumda çıxışı zamanı söyləyib.

*"Bizim Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat verdi. Çox təəccüblüdür ki, onun (Borel – red.) öz ölkəsi separatçılıqdan əziyyət çəkir. Belə bir şəxs separatçıları necə müdafiə edər? Bu, çox təəccüb doğurur"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

*"Təəssüflər olsun ki, Avropada liderlər arasında cənab Borel, madam Metsola kimi populist insanlar var. Mən hər zaman açıq danışmağı xoşlayıram. Mən onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibətləri ilə tamamilə razı deyiləm, narazıyam. Bu, ədalətsizdir və heç də Avropa İttifaqının maraqlarına uyğun deyil"*, - deyə dövlət başçısı bildirib.

# AVROPA İTTİFAQI BİZİM ƏSAS TİCARƏT TƏRƏFDAŞIMIZDIR

"Avropa İttifaqı ilə, Avropa Komissiyası ilə bizim çox yaxşı münasibətlərimiz var, sıx təmaslarımız var. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Bizim xarici ticarətimizin təqribən 50 faizi Avropa İttifaqı ilə aparılır".

Bu barədə Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda bildirib.

Azərbaycanın Avropa İttifaqının doqquz üzvü ilə strateji tərəfdaşlığa dair bəyanatlar qəbul etdiyini xatırladan dövlətimizin başçısı deyib: "Bu da Avropa İttifaqının üçdəbiri deməkdir. Bu onu nümayiş etdirir ki, milli səviyyədə və təsisatlar səviyyəsində bizim əlaqələrimiz çox yaxşıdır. Şəxsən mən və Azərbaycan Şarl Mişelin səylərini hər zaman dəstəkləmişik ki, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulsun. Onun tərəfindən Brüsseldə bir neçə görüş təşkil edilib. Biz indi mümkün yeni görüşü müzakirə edirik".

# Azərbaycan iqlim dəyişilmələrinə həssas yanaşan ölkələrdəndir




***Tanınmış beyin mərkəzlərinin yaydığı birgə hesabat başəriyyətin çox ciddi təhlükə qarşısında olması barədə həyəcan təbilidir. Əgər dünya ölkələri tədbir görməzsə, 2050-ci ilədək qlobal istiləşmə nəticəsində həyatını itirən insanların sayı 4,7 dəfə arta bilər.***

Dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP 28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitində bu problemlər müzakirə olunaraq, iqlim dəyişikliklərinin fəsadlarından qurtulmağın yolları araşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu tədbirdə iştirak etmişdir.

117 ölkənin dövlət və hökumət başçılarının, ümumilikdə 100 minə yaxın iştirakçının qatıldığı sammitin fəaliyyəti 4 əsas istiqamət üzərində qurulub. İlk istiqamət enerji keçidinin tezləşdirilməsi istiqamətidir. Enerji keçidi yaşıl, alternativ enerji mənbələrinin bütün dünyada təşviq olunmasını, bura keçidin tətbiqi çağırışlarını nəzərdə tutur. Azərbaycanalternativ enerji mənbələrindən istifadəni prioritet elan edib, qlobal iqlim dəyişmələri ilə bağlı mühüm təşəbbüs və layihələrin müəllifidir. BMT-nin iqlim dəyişmələri üzrə ölkəmizin milli əlaqələndiricisi, milli ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva bildirib ki, bütün ölkələrin tullantıları azaltmaq öhdəliyi götürdüyü ərəfədəAzərbaycanın qlobal emissiyalarda payı çox cüzidir - cəmi 0,15 faiz. Lakin buna baxmayaraq,Azərbaycan hökuməti beynəlxalq konvensiyalara dəstək olaraq, konvensiya katibliyinə yeni öhdəliyini təqdim edib. Belə ki, Azərbaycan hökuməti öz üzərinə atmosferə buraxılan istixana qazlarını 40 faiz azaltmaq öhdəliyi götürmüşdür.

Konfransın 2-ci istiqaməti iqlim dəyişiklərinə qarşı mübarizədə maliyyə öhdəliklərinin götürülməsidir, yəni inkişaf etmiş ölkələr tərəfindən bu sahədə maliyyə məsələlərinin həll olunmasıdır. Bu məsələ ilə bağlı ölkəmiz tərəfindən davamlı layihələr həyata keçirilir. Burada əsas məsələlərdən biri də 30 ilə yaxın müddətdə erməni işğalçıları tərəfindən ekoloji terrora məruz qalan ərazilərimizin bərpası, 2030-cu ilə qədər karbon neytrallığı zonasının yaradılmasıdır.

Azərbaycan yaşıllaşdırma məsələsində də regionun lideridir, artıq 2023-cü ildə 2 milyon müxtəlif cinsli ağac əkilib ki, ilin sonuna bu rəqəm 3 milyona çatdırılacaq. Bu da Azərbaycanın karbon emissiyalarının artmasına qarşı mübarizəyə çox böyük töhfəsi olacaq. Azərbaycan iqlim dəyişilmələrinə həssas yanaşan ölkələrdəndir. Son illərin statistikası göstərir ki, ölkəmizin bu istiqamətdə həssaslıq indeksi artır.

Ölkələrin qarşısında duran əsas vəzifə erkən xəbərdarlıq sisteminin yaradılmasıdır ki, bu da 2027-ci ildə qarşıda duran əsas məsələlərdəndir. Ölkəmiz hidrometeoroloji sahədə ən müasir qurğularla təchiz olunub.

Sammitin fəaliyyətinin 3-cü istiqaməti görüləcək tədbirlərin mərkəzinə insan faktorunun daxil edilməsidir.Tədbirdə təəssüflə bildirilmişdir ki, dünyada qlobal istiləşmənin faciəvi mənzərə almasının səbəblərindən biri insan amilidir. Sənayenin sürətli inkişafı dünyanı karbon emissiyası problemi ilə üz-üzə qoymuşdur. Tədbirin 4-cü istiqaməti isə tərəflərin konfransın inklüzivliyi üçün bütün imkanlardan istifadəsidir.

Sammitin 2-ci günü Birləşmiş Ərəb Əmirliklərinin Milli Gününə təsadüf etmişdir. Həmin gün Sammitdəçıxış edən Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın bu istiqamətdə gördüyü işlər, alternativ enerji mənbələrindən istifadə ilə bağlı irəli sürdüyü təşəbbüslər barədə ətraflı məlumat vermişdir.

"Global Carbon Project" təşkilatının məruzəsində qeyd olunub ki, kömür və qaz kimi ənənəvi yanacaqlardan istifadə zamanı atmosferəatılan zərərli karbon qazı bu il rekord həddə çatacaq.

Bu barədə məlumatda bildirilib ki, 2023-cü ildə havaya atılan karbon qazının miqdarı təxminən 37 milyard ton təşkil edəcək. Öncəki illə müqayisədə bu göstərici 1,1 faiz artıb. Hindistanda 8,2 faiz, Çində isə 4 faiz artım müşahidə edilib. Eyni zamanda, karbon qazı emissiyası Avropada 7,4 faiz, ABŞ-da 3 faiz azalıb.

# İşğaldan azad olunmuş ərazilərə 2026-cı ilədək 34 500 ailənin köçürülməsi nəzərdə tutulub



"Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulub". Bunu Baş nazir Əli Əsədov parlamentin dekabrın 5-də keçirilən plenar iclasında çıxışı zamanı deyib.

Baş nazir bildirib ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün sonrakı illərdə 14,5 milyard manat vəsait nəzərə alınmaqla 2022-2026-cı illərdə ümumilikdə təqribən 30,5 milyard manat məbləğində vəsait tələb olunur:

**"Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, vergi, gömrük, sosial sığorta, investisiya təşviqi, kredit və digər güzəştlər paketi həmin rayonların sürətlə dirçəlməsinə, əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir".**

Əli Əsədov xatırladıb ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə qayıdış prosesinin ilkin mərhələsinə start verilib. Onun sözlərinə görə, 2026-cı ilədək 34 500 ailənin və ya 140 min vətəndaşın köçürülməsi nəzərdə tutulub.

***"Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış Proqramına uyğun olaraq ümumilikdə 987 ailənin (3932 nəfər) köçürülməsi təmin olunub. Cari ilin sonunadək əlavə olaraq 215 ailənin köçürülməsi gözlənilir. Xüsusi qeyd etmək istərdim ki, Qarabağ iqtisadi rayonunun əraziləri - Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və bütövlükdə işğaldan azad olunmuş rayon və şəhərlərin yerli xərcləri üzrə büdcədə 50 milyon manatdan artıq vəsait nəzərdə tutulub"***, - deyə Baş nazir vurğulayıb.

# Cari ildə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik qorunub

"2024-2027-ci illərdə makro-fiskal çərçivənin parametrləri büdcə qaydasının ortamüddətli lövbərlərinə əsaslanaraq hazırlanıb". Bunu Baş nazir Əli Əsədov parlamentin dekabrın 5-də keçirilən plenar iclasında çıxışı zamanı deyib.

Baş nazir bildirib ki, postpandemiya dövründən sonra milli iqtisadiyyatın artım tempi bərpa olunsa da, qlobal iqtisadiyyatda qeyri-müəyyənliklər, geosiyasi vəziyyət, beynəlxalq maliyyə mühitində sərtləşmələr ölkə iqtisadiyyatı qarşısında yeni çağırışlar formalaşdırır: "2024-cü ilin dövlət büdcəsi tərtib olunarkən hazırkı reallıqlar, problem və çətinliklər, habelə ən aktual qlobal çağırışlar nəzərə alınıb".




Əli Əsədov qeyd edib ki, cari ilin ötən dövründə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik qorunub, qeyri-neft qaz sektoru hesabına iqtisadi artım təmin edilib, inflyasiya tempi azalıb, tədiyə balansında profisit olub.

# "Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilir"

Bu sözləri Energetika naziri Pərviz Şahbazov COP 28-ə sədrlik edən Birləşmiş Ərəb Əmirliklərinin və Avropa İttifaqının təşkilatçılığı ilə keçirilən "Bərpa olunan enerji və Enerji səmərəliliyi nazirləri"-nin dəyirmi masasında çıxış edərkən deyib.

O, 2030-cu ilə qədər dünyada bərpa olunan enerji potensialının üç dəfə, enerji səmərəliliyinin isə ikiqat artırılması üzrə "Bərpa Olunan Enerji və Enerji Səmərəliliyinə dair Qlobal Vəd" birgə təşəbbüsünə Azərbaycanın dəstəyini ifadə edib.

Nazir Azərbaycanın COP 28 çərçivəsində irəli sürülən təşəbbüslərə qoşulmasını "yaşıl enerji" keçidinə və Avropa İttifaqı ilə yenilənmiş strateji tərəfdaşlığının "yaşıl enerji" müddəalarının icrasına sadiqliyin göstəricisi kimi dəyərləndirib.

Bildirilib ki, Azərbaycan Xəzər dənizinin 157 QVt-lıq külək enerjisi potensialı və növbəti on ildə reallaşdıracağı 10 QVt "yaşıl enerji" layihələri, "yaşıl enerji dəhlizi", həmçinin Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanı "yaşıl enerji" zonalarına çevirməsi, enerji səmərəliliyi sahəsində islahat tədbirləri ilə bu qlobal təşəbbüsə əhəmiyyətli töhfələr verəcək: "2027-ci ilədək 2 QVt həcmində "yaşıl güc"lərin enerji sistemimizə inteqrasiyası bərpa olunan enerjinin payını 33%-ə yüksəldəcək.

Nəticədə 2030-cu ilə 30%-lik hədəfimizi daha erkən və artıqlaması ilə yerinə yetirə biləcəyik. Azərbaycanın bərpa olunan enerjisi həm də avropalı tərəfdaşlarının enerji təchizatını şaxələndirəcək. Hesab edirəm ki, Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilir", - deyə nazir əlavə edib.

Qeyd edək ki, tədbirdə 35 ölkə, 13 şirkət və təşkilat təmsil olunub.

# "Azərbaycanın ərazi bütövlüyünün imza ilə təsdiqlənməsini gözləyirik"

"Biz artıq Azərbaycanın ərazi bütövlüyünün bəyanatlarla deyil, imza ilə təsdiqlənməsini gözləyirik". Bu barədə Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda bildirib.

"Ermənistanın ərazisini işğal etmək kimi bir hədəfimiz yoxdur", - deyən dövlətimizin başçısı vurğulayıb ki, bəzən əsassız olaraq bizi bunda ittiham edirlər. ***"Biz bunu etmək istəsəydik edərdik. Bunu açıq şəkildə bəyan edirəm. İstənilən nöqteyi-nəzərdən Azərbaycan üçün böyük problem deyil. Onlar bir gün ərzində öz silahlarını yerə qoydular və bizim bayrağımız Xankəndidə ucaldıldı. Biz bunu etmək istəmirik. Biz bunu etmiriksə, bu o deməkdir ki, mən bu məsələdə haqlıyam"***, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

# Vergi Məcəlləsinə dəyişikliklər üçüncü oxunuşda təsdiq edilib

Vergi Məcəlləsinə dəyişikliklər Milli Məclisin dekabrın 5-də keçirilən iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılıb.




Qanun layihəsinə, əsasən siqaret və alkoqollu içkilərin aksiz dərəcəsinin artırılması, aksiz vergisindən azad edilən məhsulların siyahısının genişləndirilməsi, motosikletlərə aksiz vergisinin müəyyənləşdirilməsi, mikro sahibkarlara vergi güzəştinin şərtlərinin dəyişdirilməsi, kiçik sahibkarlığa keçidin stimullaşdırılması, mikro sahibkarların sosial sığorta haqlarının 25 faizinin ödəyəcəkləri vergidən çıxılması, tibb müəssisələri, özəl tibbi praktika ilə məşğul olan şəxslər, tədris bazası kimi fəaliyyət göstərən xəstəxanalar və film istehsalı ilə bağlı vergi güzəştinin müəyyənləşdirilməsi və s. təklif olunur.

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq üçüncü oxunuşda təsdiq edilib.

# Azərbaycan-Albaniya enerji əməkdaşlığı müzakirə edilib

Dubayda COP 28 çərçivəsində energetika naziri Pərviz Şahbazov ilə Albaniyanın Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Balluku arasında görüş olub.

Energetika Nazirliyindən bildirilib ki, görüşdə iki ölkə arasında münasibətlərin yeni müstəvidə inkişafından məmnunluq ifadə edilib. Albaniyanın enerji təhlükəsizliyinin təmin edilməsi və qaz tranziti ölkəsi kimi inkişafında Azərbaycanla enerji əməkdaşlığının mühüm rolu qeyd olunub.

Albaniyanın Korça şəhərinin qazlaşdırılması, xam neftin tədarükü və digər perspektiv istiqamətlərdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Həmçinin Azərbaycan-Albaniya iqtisadi, sənaye və texnoloji əməkdaşlıq üzrə İşçi Qrupu əsasında Birgə Hökumətlərarası Komissiyanın yaradılması və Komissiyanın iclasının Bakıda keçirilməsi ilə bağlı məsələlər də müzakirə edilib.

# Azərbaycanda üzümçülüyün inkişafını şərtləndirən bir tarixi sənəd barədə

***Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında, Azərbaycanın iqtisadi inkişafında müstəsna xidmətləri vardır.***

***Bu gün də, sabah da Azərbaycanda iqtisadiyyatın mühüm və qədim sahələrindən biri olan üzümçülüyün inkişafı diqqət mərkəzində olacaqdır. Ulu Öndər Heydər Əliyev 1970-ci illərdə Azərbaycanda üzümçülüyün inkişafına xidmət edən çox mühüm tədbirlər həyata keçirdi. Nəticədə Azərbaycan keçmiş Sovetlər Birliyində üzümçülüyün inkişafına görə birinci yerə çıxdı. SSRİ üzrə istehsal edilən üzümün 28%-i respublikamızın payına düşürdü.***

Bu böyük nailiyyət heç də asan başa gəlməmişdi. Azərbaycan xalqının gərgin əməyi, düşünülmüş iqtisadi islahatlar, xüsusilə də, Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən qərarlar...

Aşağıdakı yazıda bu qərarlardan biri haqqında söhbət açacağıq.

**Ötən əsrin sonları və 70-ci illərin əvvəllərində respublikanın müvafiq icra strukturları Heydər Əliyevin tapşırığı ilə xalq təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafı ilə bağlı konkret təhlillər aparır, meydana çıxan problemlərin həlli yollarını mütəxəssislər yerli orqanlarla müəyyənləşdirir və bu barədə respublika rəhbərliyini məlumatlandırırdılar.**



Araşdırmalar sübut edirdi ki, ittifaq hökuməti sərt inzibati metodlardan istifadə etməklə Azərbaycana yüksək plan tapşırıqlarının verilməsinə baxmayaraq, onların yerinə yetirilməsi üçün lazımi şərait yaradılmasına o qədər də diqqət yetirmirdilər. Bu cür yanaşma özünü üzümçülükdə də göstərirdi.

16 noyabr 1971-ci ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti «Azərbaycan SSR-də üzümçülüyün inkişafı barədə» bu gün üçün də öz əhəmiyyətini saxlayan tarixi qərar qəbul etdi. Qərarda göstərilirdi ki, üzümçülüyün inkişafı sahəsində bütün imkanlardan, aqrotexnikadan, gübrələrdən tam istifadə olunmur, ziyanvericilərə qarşı lazımi səviyyədə mübarizə aparılmır. Sovxoz və kolxozlar 1966-1970-ci illər ərzində üzümlüklər salınması üzrə planı 74,6% yerinə yetiriblər. 1969-1970-ci illərdə isə ixtisaslaşmış sovxozlar üçün ayrılmış torpaqların 24,9 min hektarında üzümlüklər salınmamışdır. Göstərilən çatışmazlıqlar nəticəsində 1966-1970-ci illər ərzində plan tapşırığı yerinə yetirilməmiş və dövlətə 84,4 min ton üzüm satılmamışdır. Üzüm emal edən zavodların tikintisi ləng həyata keçirilir, müntəzəm olaraq tikinti-quraşdırma işləri üzrə plan yerinə yetirilmir. İstehsal olunan şərabların keyfiyyəti aşağı olaraq qalmaqdadır.

Ona görə də sahənin respublika iqtisadiyyatında rolunun artırılması üçün kompleks tədbirlər görülməli, üzümçülüyə respublikanın perspektiv inkişafında xüsusi yer verilməlidir.

*Respublika rəhbəri çox ciddi keçən müzakirəyə yekun vuraraq demişdir: «Biz bu məsələni bilərəkdən büronun müzakirəsinə qaldırdıq, çünki görürük ki, Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi, yerli orqanların rəhbərləri və başqa yoldaşlar üzümçülüyün inkişafına lazımi diqqət göstərmirlər. VIII beşillikdə respublika rəhbərliyi bəyan etmişdi ki, biz üzüm və şərab istehsalı üzrə qabaqcıllar sırasına çıxmaq arzusundayıq, respublika iqtisadiyyatının inkişafında pambıq və digər kənd təsərrüfatı bitkiləri istehsalı aparıcı sahə ola bilməz. Biz o fikirlə razı deyilik ki, üzümdən başqa digər bitkilər perspektivli deyil. Lakin bununla yanaşı, ittifaq qarşısında götürülmüş öhdəlik yerinə yetirilməlidir. Komitə və yerli orqanlar məsələyə səthi yanaşır və hesab edirlər ki, milyon ton üzüm heç bir tədbir görülmədən istehsal olunacaq. Mən bir neçə dəfə Rəhimov yoldaşla söhbət etmişəm və o, mənə bildirirdi ki, plan yerinə yetiriləcək, 350-400 min ton üzüm də yığılacaq. Əkin sahələrinin genişləndirilməsi müəyyən qədər istehsalın artırılmasına səbəb oldu, amma bu, çıxış yolu deyildir. Hesab edirəm ki, pambığa göstərilən münasibət üzümə göstərilmir. Əgər üzüm istehsalı respublika iqtisadiyyatının inkişafına xidmət etmiş olacaqsa, bu, belə olmalı deyil.*

*Qərar qəbul edərkən üzüm istehsalı ilə yanaşı, onun emalı məsələlərinə də toxunmaq lazımdır. Birincisi, veriləcək tapşırıqlar real olmalıdır, ikincisi isə material-texniki təchizat vaxtında yerinə yetirilməlidir. Ona görə də hesab edirəm ki, qərar layihəsi yenidən işlənməlidir. Hesab edirəm ki, yeni qərar layihəsində buraxılmış səhvlərə tənqidi yanaşılmalı, görülmüş işlərə yekun vurulmalı və doqquzuncu beşillik üçün götürdüyümüz öhdəliyin yerinə yetirilməsi məqsədilə konkret tədbirlər əks etdirilməlidir».*

Qərarda göstərildi ki, 1975-ci ildə üzüm istehsalı 737 min tona çatdırılsın. Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinə tapşırıldı ki, SSRİ Nazirlər Sovetinin 19 may 1969-cu il tarixli 355 saylı qərarına uyğun olaraq, 1971-ci ildə 15 min, 1972-ci ildə 25 min, 1973-cü ildə 15 min, 1974-cü ildə 15 min və 1975-ci ildə 12 min hektar (ha) sahədə üzümlüklər salınsın. Üzümlüklərdə mineral və üzvi gübrələrdən istifadə olunsun, ziyanvericilərlə mübarizə aparılaraq 1972-1973-cü illərdə məhsuldarlıq hər hektardan 70 sentnerə, suvarılan torpaqlarda isə 100 sentnerə çatdırılsın. Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi, Sovxozlar Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyinə tapşırıldı ki, hər bir rayon üzrə özünəməxsus üzüm növlərinin yetişdirilməsinə nəzarət edilsin. Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinə tapşırıldı ki, 1972-ci ildə Yenikənd sovxozunda ildə 2 milyon peyvənd istehsal edəcək peyvənd emalatxanasının tikintisini başa çatdırsın. Meliorasiya Su Tikinti Baş İdarəsinə Qazax rayonunun M.Hüseyn adına sovxozun əkin sahələri və bağlarının suvarılması üçün Xramçay üzərində, Vaqif adına, Caparidze adına, Vidadi adına, Krupskaya adına sovxozlarda suvarma sistemlərinin təkmilləşdirilməsi üçün Kür çayı üzərində nasos stansiyalarının tikintisini başa çatdırmaq tapşırıldı; «Azqiprovodxoz» Layihə İnstitutunun, Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinin sifarişi ilə 1972-1973-cü illərdə Ağstafaçay kanalının Qazax rayonunun Dimitrov adına sovxozunadək çatdırılması, Əlincəçay suvarma sisteminin yenidən qurulması, Qazax rayonunun Krupskaya adına və Dimitrov adına sovxozlarının suvarılması üçün Kür çayı üzərində nasos stansiyasının tikintisi məqsədilə layihə-smeta sənədlərini hazırlasınlar.

Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinə isə tapşırıldı ki, istehsal olunmuş üzümün saxlanması üçün soyuducu anbarların tikintisini həyata keçirsin. 1975-ci ildə istehsal olunmuş məhsulun 89%-i emal olunsun.

Respublika Maliyyə Nazirliyi Hidrometeoroloji Xidməti İdarəsinə dolu ilə mübarizə aparmaq üçün 1972-ci ildə 150 min, 1973-cü ildə 250 min, 1974-cü ildə 250 min və 1975-ci ildə 200 min rubl vəsait ayırmalıdır. Azərbaycan SSR Nazirlər Soveti yanında mətbuat üzrə Dövlət Komitəsinə tapşırıldı ki, 1972-ci ildə «Azərbaycan üzümçülüyü» kitabının, 1973-cü ildə Azərbaycan dilində 25-30 səhifəlik üzümçülük dərsliyinin, Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinin sifarişi ilə plakat və broşürlərin çapını həyata keçirsin. Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Kinematoqrafiya Komitəsinə tapşırıldı ki, 1972-ci ildə respublikanın kolxoz və sovxozlarında üzümçülüyün inkişafı barədə film çəksin.

Müəyyən edildi ki, üzüm bağları salınması üçün sahələr seçmək, öyrənmək, torpaqları yararlı hala salmaq üçün respublikamızın müvafiq elmi tədqiqat müəssisələri çox iş görməlidirlər. Böyük və Kiçik Qafqaz sıra dağlarının ətəklərindəki yüz min hektarlarla istifadəsiz qalmış sahələrdə üzüm və meyvə bağları salınması üçün geniş miqyasda elmi tədqiqat işlərinin aparılmasına, bu işlərin sistemli şəkildə öyrənilməsi üçün üzümçülük institutunun yaradılmasına ehtiyac var.

Müzakirələrdə xüsusi vurğulandı ki, bir vaxtlar Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda üzümçülər və şərabçılar yetişdirilirdi. Hazırda həmin kadrlar respublikamızın üzümçülük təsərrüfatlarında çalışır və özlərini işdə doğruldurlar. Gələcəkdə də Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda ixtisaslı üzümçü və şərabçı mütəxəssislərin yetişdirilməsinə diqqət artırılmalıdır.



AHİŞ, Azərbaycan LKGİ MK, vilayət, şəhər və rayon partiya komitələrinin respublikanın üzümçülük və şərabçılıq işçilərinin sosializm yarışına rəhbərliyi gücləndirilsin, yarışın əyaniliyi təmin edilsin, üzümçülərin təşəbbüsü və əmək fəallığı artırılsın, istehsalat qabaqcıllarının mənəvi və maddi həvəsləndirilməsi amillərindən geniş istifadə edilsin. Tövsiyə edildi ki, üzüm istehsalına və dövlətə satışına dair planların və sosialist öhdəliklərinin yerinə yetirilməsinə və üzümçülük mədəniyyəti səviyyəsinin yüksəldilməsinə nail olmağa görə kolxozlara, sovxozlara, şöbələrə, briqadalara təqdim etmək üçün rayonlar üzrə keçici Qırmızı bayraqlar təsis olunsun.

Respublika qəzetlərinin redaksiyalarına, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə təklif edildi ki, respublikada üzümçülüyün inkişafı ilə əlaqədar olan məsələlərin işıqlandırılmasına daha çox diqqət yetirsinlər, təsərrüfatların, briqadaların və ayrı-ayrı üzümçülərin müsbət iş təcrübəsinin yayılmasına kömək etsinlər.

**Qətiyyətlə demək lazımdır ki, Mərkəzi Komitənin yuxarıda adıçəkilən qərarı respublikada üzümçülüyün inkişafı üçün fundamental əsaslar yaratdı, üzümçülüyü və emal sənayesini respublika iqtisadiyyatının mühüm bir sahəsinə çevirdi, kənd əhalisinin gəlirləri artdı, 10 minlərlə yeni iş yerləri açıldı. 1971-ci ildəki 321,9 min tona qarşı 1972-ci ildə 232 min ton üzüm yığıldı. Lakin IX beşilliyin iki ili ərzində kolxoz və sovxozlar dövlətə təqribən 220 min ton az üzüm verdilər.** Əlbəttə, bu rəqəm narahatlıq doğurmaya bilməzdi. Ona görə də araşdırılması müvafiq icra strukturlarından tələb edildi, mütəxəssislərlə məsləhətləşmələr aparıldı, üzüm bağlarının becərilməsi mədəniyyətini yüksəltmək üçün kompleks tədbirlərin həyata keçirilməsi təxirəsalınmaz bir vəzifə kimi qiymətləndirildi. Bu məqsədlə 1973-cü ilin may ayında Mərkəzi Komitənin və Nazirlər Sovetinin bir iclasına "Üzümçülüyün inkişafında ciddi nöqsanlar və respublikada üzüm istehsalının və şərabçılığın daha da yüksəldilməsi sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsini təmin etmək tədbirləri haqqında" məsələ müzakirəyə çıxarıldı.

Müzakirədə qeyd olundu ki, üzüm istehsalını artırmaq və şərabçılığı inkişaf etdirmək üçün dövlətin ayırdığı pul vəsaitindən və maddi-texniki vəsaitdən bir çox illər ərzində son dərəcə pis istifadə edilmişdir.

Arxiv materialları göstərir ki, müzakirə çox ciddi keçmiş, üzümçülüyün inkişaf məsələlərinə yüksək peşəkarlıqla yanaşılmış, respublikanın aqrar sektorunda bir neçə ildən sonra ciddi müsbət dəyişikliklər əldə edilməsinə imkan verəcək tədbirlər müəyyən edilmişdir ki, bu gün də onlar üzümçülüyün inkişafı üçün vacib əhəmiyyət kəsb edə bilər. Həmin tədbirlər nəticəsində 1971-1972-ci illərdə 42 yeni ixtisaslaşdırılmış üzümçülük sovxozu yaradılmış, 30 min hektar sahədə yeni üzümlüklər salınmış, üzümçülüyün və şərabçılığın maddi-texniki bazası möhkəmləndirilmişdir.

Lakin elə həmin 1971-1972-ci illərdə üzümçülük üçün əlverişli olmayan iqlim şəraitində quraqlığın və şiddətli şaxtaların nəticələrini aradan qaldırmaq üçün təsirli tədbirlər görülməmiş, lazımi aqrotexniki tədbirlər hərtərəfli aparılmamışdır. Üzüm bağlarının məhsuldarlığına mənfi təsir göstərən amillərdən biri də bu olmuşdur ki, 20 min hektardan çox üzümlüklərdə tənəklər məftillərə qaldırılmamışdır. Plantasiyaların bərpa edilməsinə dair tapşırıqların hər il ancaq yarısı yerinə yetirilmişdir.

1971-ci ildə nəzərdə tutulduğundan 3 min, 1972-ci ildə 7 min hektar az plantasiya salınmışdır. Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi əkin materialını yetişdirmək üçün calaqetmə emalatxanalarının və ixtisaslaşdırılmış sovxozların təşkil edilməsi haqqında Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin qərarını yerinə yetirməmişdir. 1972-ci ildə 85 milyon ədəd ting əvəzinə gətirilmə tinglər nəzərə alınmaqla yalnız 28 milyon ədəd ting tədarük edilmişdir. Əslində kökü olan bitkilər 5-6 min hektar sahəyə çatır, qalan sahələrdə isə çubuqlar əkilir ki, bu da onların cücərmə qabiliyyətinin azalmasına gətirib çıxarır. Üzümlüklərə qulluq üzrə işlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi tədbirləri barədə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qərarının müzakirəsi zamanı bildirildi ki, tənəklərin sort tərkibində qayda-qanuna riayət edilmir, çox vaxt rayonlaşdırılmamış sortlar əkilir, yeməli üzüm sortlarının istehsalının artırılmasına az diqqət yetirilir. Karantin şərtlərinə kifayət qədər əməl edilmir, profilaktika tədbirlərinin görülməsində ardıcıllıq yoxdur, xəstəliklər yayılır və filloksera bütün rayonları bürüyür.

Qərarda göstərilirdi ki, üzümün yetişdirilməsi mədəniyyəti müasir səviyyədən geri qalır, çox zəhmət tələb edən işlərin mexanikləşdirilməsi səviyyəsi aşağıdır, ixtisaslaşdırılmış texnikadan istifadə olunmur, bir çox işlərdə əl əməyi üstünlük təşkil edir.

Əməyin təşkilində də bir çox nöqsanlar var. Belə ki, kadrlara kütləvi peşələrin öyrədilməsi sistemi yoxdur, xüsusən bu bitkinin becərilməsi sahəsində ənənəvi səriştənin olmadığı rayonlarda kadrların hazırlanması miqyası və keyfiyyəti qənaətbəxş deyildir. Heç də hər yerdə üzümçülər üçün normal məişət şəraiti yaradılmır, mənəvi və maddi həvəsləndirmə tədbirlərindən zəif istifadə olunur.

Respublikada üzüm istehsalının xeyli yüksəldilməsinin nəzərdə tutulması üzümçülüyün emaledici bazasını genişləndirmək – şərabçılıq müəssisələrini inkişaf etdirmək və bu müəssisələri texniki cəhətdən təkmilləşdirmək sahəsində təxirəsalınmaz tədbirlər görülməsini tələb edirdi. Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinin rəhbərliyi bu mühüm vəzifənin yerinə yetirilməsinə məsuliyyətsiz yanaşmış və bunun nəticəsində yeni şərab zavodlarının tikintisi çox ləng aparılmış, həmin zavodların işə salınması üçün müəyyən edilmiş müddətlər pozulmuşdur.

Azərbaycan KP MK Dövlət Üzümçülük və Şərabçılıq Komitəsinə, Kənd Təsərrüfatı Nazirliyinə, vilayət, şəhər və rayon partiya komitələrinə bir vəzifə olaraq tapşırdı ki, qərarda göstərilən nöqsanların aradan qaldırılması üçün təsirli tədbirlər görsünlər, üzümçülüyün inkişafında əsaslı dönüş yaratsınlar, cari beşillik üçün üzümçülük və şərabçılıq sahəsində Azərbaycan KP XXVIII qurultayının qarşıya qoyduğu vəzifələrin hökmən yerinə yetirilməsi məqsədilə üzümçülük təsərrüfatlarının və şərabçılıq müəssisələrinin işçiləri arasında təşkilatçılıq işini və kütləvi siyasi işi genişləndirsinlər. "Azərbaycan SSR-də üzümçülüyü və şərabçılığı daha da inkişaf etdirmək tədbirləri haqqında" Azərbaycan KP MK-nın və respublika Nazirlər Sovetinin 1971-ci il 16 noyabr tarixli qərarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsini təmin etsinlər.

Azərbaycan KP MK respublikanın müvafiq nazirliklərindən, üzümçülük rayonlarının partiya, sovet və kənd təsərrüfatı orqanlarından tələb edirdi ki:

- hər bir sovxozda və kolxozda işlərin vəziyyətini diqqətlə yoxlayıb təhlil etsinlər. Keyfiyyətli əkin materialının hazırlanmasında, üzümlüklərin sortluq tərkibinin yaxşılaşdırılmasında, üzümlüklərə ixtisaslı qulluq edilməsində, üzümlüklərin becərilməsində, gübrələnməsində və müalicəsində, karantin şərtlərinə əməl olunmasında, üzümlükdə mexanikləşdirmə səviyyəsinin yüksəldilməsində sovxoz və kolxozlara real yardım göstərmək barəsində konkret tövsiyələr işləyib hazırlasınlar;

*Görülmüş tədbirlərin nəticəsində respublikada üzüm yığımı 1975-ci ildə 1970-ci ilə nisbətən 2 dəfə artdı ki, bu da 1957-1965-ci illərdə cəmi yığılmış üzümdən çox idi. İttifaq üzrə ümumi üzüm istehsalında Azərbaycanın xüsusi çəkisi 13 faizə yüksəldi...*

*IX beşillikdə həm mövcud üzüm bağlarının vəziyyətinin yaxşılaşdırılmasına, həm də yeni üzüm bağlarının salınmasına diqqət artırıldı, üzümçülüyün inkişafının intensivləşdirilməsi, elmin və qabaqcıl təcrübənin nailiyyətlərinə əsasən əməyin və istehsalın təşkilinin təkmilləşdirilməsi sahəsində konkret tədbirlər həyata keçirildi. Respublikanın üzümçüləri 1974-cü ildə bağlardan 630 min ton üzüm dərdi. 1975-ci ildə isə üzüm istehsalı 720 min tonu ötüb keçdi. Beşillikdə hər hektarın məhsuldarlığının 22 sentner artması təmin edildi. Dövlətə 666 min ton, yəni 1965-ci ildəkindən 10 dəfə çox üzüm satıldı.*

*X beşillikdə üzümçülükdə əldə edilmiş müsbət meyilləri daha da gücləndirmək məqsədilə 1976-cı ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti "Üzümlüklərə qulluq üzrə işlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi tədbirləri barədə" və "Azərbaycan SSR-də üzüm istehsalının artırılması və şərab sənayesinin gələcək inkişaf tədbirləri barədə" 2 mühüm qərar qəbul etdi.*

*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev 1979-cu ildə keçirilən tədbirdə çıxış edərək demişdir: "Biz müşavirələrə yekun vurarkən deyə bilərik ki, ilin əvvəlindən bəri kənd təsərrüfatı sahəsində görülən böyük işlər öz müsbət bəhrələrini vermişdir. Fərəhlidir ki, həm üzümçülükdə, həm də kənd təsərrüfatı istehsalının başqa sahələrində biz yüksək məhsulun yaxşı təməlini qoya bilmişik. Buna görə də bu gün bir daha qətiyyətlə demək olar ki, respublikada rekord miqdarda üzüm məhsulu götürmək üçün əlverişli şərait yaranmışdır. Beşilliyin yekun ilində respublika dövlətə azı 1 milyon 100 min ton üzüm sata bilər. Respublikamızın hər yerində üzüm yetişdirmək sahəsində zəngin təcrübə toplanmışdır, indi respublika kənd təsərrüfatının əsas sahələrindən biri olan üzümçülük mədəniyyətini, bu sahədə çalışan işçilərin məsuliyyət hissini yüksəltmək çox vacibdir.*

Müstəqilliyin ilk illərində iqtisadiyyata, o cümlədən kənd təsərrüfatına vurulmuş zərbələr nəticəsində üzümçülükdə ciddi geriləmələr baş vermişdi. Bu gün iqtisadi inkişafın yeni mərhələsində Azərbaycanda ənənəvi üzümçülüyün inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir ki, onlar da öz müsbət nəticəsini verməkdədir.

**bax.: Ziyad SƏMƏDZADƏ,**
**"Azərbaycan iqtisadiyyatı 100 ildə",**
**II cild, Bakı, 2021,**
**səh. 136-145**

# Şirkətlərin borcunun əvəzləşdirilməsi ilə bağlı yeni mexanizm yaradılır



Bu, Milli Məclisin dekabrın 5-də keçirilən iclasında müzakirəyə çıxarılan Mülki Məcəlləyə təklif edilən dəyişiklikdə əksini tapıb.
Layihəyə əsasən, məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının artırılması zamanı cəmiyyət iştirakçılarının yekdil qərarı əsasında həmin cəmiyyətə qarşı pul tələbinə malik olan şəxslər pul tələblərini əvəzləşdirməklə və məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı olmaqla nizamnamə kapitalına maya qoymaq vəzifəsindən azad oluna bilərlər. Bu cür təşəbbüslə cəmiyyətə qarşı pul tələbi olan şəxslər və ya cəmiyyət çıxış edir.
Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq üçüncü oxunuşda təsdiq edilib.

# Ləğv edilən sığortaçı ilə bağlı yeni tələblər müəyyənləşir

Milli Məclisin dekabrın 5-də keçirilən iclasında "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi müzakirəyə çıxarılıb.
Sığortaçı ləğv edildikdə onun kreditorlarının sığortaçı tərəfindən qəbul edilən tələbləri yeni qaydada ödəniləcək.
Belə ki, səkkizinci növbədə, dövlət büdcəsinə vergilər, büdcədənkənar dövlət fondlarına məcburi dövlət sosial sığorta haqları, işsizlikdən sığorta haqları, habelə icbari tibbi sığorta fonduna icbari tibbi sığorta haqları üzrə ödənilməli məbləğlər, dövlət büdcəsindən verilmiş kreditlərin qaytarılması üzrə borclar, həmçinin sığortaçının ləğvi tarixindən əvvəlki bir il ərzində rüsumlarla və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən icbari ödənişlərlə bağlı yaranmış tələblər müəyyən edilir.
Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.




# 2024-cü ildə inflyasiyanın bir rəqəmli olacağı proqnozlaşdırılır

"Azərbaycanda makroiqtisadi sabitlik qorunub saxlanılıb, inflyasiya tempi azalıb".
Bunu Baş nazir Əli Əsədov Milli Məclisin dekabrın 5-də keçirilən iclasında deyib.
Ə.Əsədov qeyd edib ki, Azərbaycanın valyuta ehtiyatları 68.3 milyard ABŞ dolları təşkil edib ki, bu da ÜDM-in 97 faizinə bərabərdir.




*"Hökumətin anti-inflyasiya tədbirləri, məzənnə sabitliyinin tənzimlənməsi nəticəsində inflyasiya tempi azalıb.* ***2024-cü ildə inflyasiyanın bir*** *rəqəmli olacağı proqnozlaşdırılır. İnflyasiyanın qarşısının alınması və məqbul səviyyədə saxlanılması istiqamətində tədbirlər davam etdiriləcək"*, - deyə o əlavə edib.

# Pirallahı Sənaye Parkında yeni zavod inşa edilir



"Gen Pharma Caucasus Manufacturing Operations" MMC-yə Pirallahı Sənaye Parkının rezidentliyi statusu verilib. Bununla da Sənaye Parkının rezidentlərinin sayı 6-ya çatıb.
İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, şirkət tərəfindən Sənaye Parkının 7,8 hektar ərazisində yüksək keyfiyyətli 42 ad altında müxtəlif doza və qablaşdırma olmaqla ümumilikdə 7 növdə (tablet, kapsul, jelatin kapsul, toz suspenziya, sirop və s.) dərman məhsulunun istehsalı həyata keçiriləcək.
İnvestisiya dəyəri 59,3 milyon manat olan müəssisədə 165 nəfər işlə təmin ediləcək.
İllik istehsal gücü 50 milyon qutu istehsalı olan müəssisə "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Türkiyənin "Gen İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş", "Sia Pharmaceuticals" MMC-nin 3 tərəfli əməkdaşlığı çərçivəsində inşa ediləcək.

# Müflis banklara dair yeni tələb müəyyənləşir

Bu, Milli Məclisin dekabrın 5-də keçirilən iclasında müzakirəyə çıxarılan "Banklar haqqında" qanuna dəyişiklikdə əksini tapıb.
Sənəddə qeyd edilib ki, müflis elan edilmiş bankın aktivləri onun kreditorları arasında yeni növbəlilik qaydasında bölüşdürüləcək. Bu halda dövlət büdcəsinə vergilər, büdcədənkənar dövlət fondlarına məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları, habelə icbari tibbi sığorta fonduna icbari tibbi sığorta haqları üzrə ödənilməli məbləğlər ödəniləcək.
Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.



# SOCAR "Neft və Qazın Dekarbonizasiyası Xartiyası"na qoşulub

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP28) çərçivəsində Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) nümayəndə heyəti "Neft və Qazın Dekarbonizasiyası Xartiyası"nın (OGDC) elan edilməsinə həsr olunmuş konfransda iştirak edib.
Şirkətdən bildirilib ki, iqlim dəyişmələri üzrə qlobal çağırışları nəzərə alan və ətraf mühitin mühafizəsini prioritet istiqamət kimi müəyyənləşdirən SOCAR OGDC xartiyasına qoşulduğunu elan edərək neft-qaz əməliyyatları zamanı ekoloji məsələlərə həssaslıqla yanaşdığını bir daha nümayiş etdirib.
Qeyd edək ki, OGDC xartiyası 2050-ci ilə qədər əməliyyatlarda xalis sıfıra nail olma, 2030-cu ilə qədər "Upstream" seqmentində metan emissiyaları üzrə sıfır hədəfinə yaxınlaşma, 2030-cu ilə qədər normal hasilat prosesində məşəldə yandırmaların sıfıra endirilməsi kimi hədəfləri özündə əks etdirir.




# SOCAR nümayəndə heyəti Əlaqələndirmə komitəsinin 8-ci iclasında iştirak edib




1 dekabr 2023-cü il tarixində Almaniyanın Berlin şəhərində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə "Uniper" şirkəti arasında enerji sektorunda davamlı tərəfdaşlığı təşviq edən Əlaqələndirmə komitəsinin 8-ci iclası keçirilib.
SOCAR-ın və "Uniper" şirkətinin rəhbər şəxslərdən ibarət nümayəndə heyətlərinin iştirak etdiyi iclasda Cənub Qaz Dəhlizinin genişləndirilməsi istiqamətində atılan addımlar, SOCAR-da insan resurslarının inkişafı sahəsində əldə olunan nailiyyətlər, "Uniper"in yeni strategiyası və biznes maraqları müzakirə olunub. Eyni zamanda, Azərbaycanda enerji keçidi ilə bağlı görülən işlər və SOCAR-ın gələcək layihələri ilə bağlı təqdimat edilib.
Tədbirdə Azərbaycanın Almaniyadakı səfirinin, SOCAR və "Uniper" şirkətlərinin rəhbər şəxslərinin çıxışları dinlənilib, enerji sənayesinin inkişafına dair fikir və təcrübə mübadiləsi aparılıb.
İclasda tədbirin şirkətlər arasında əməkdaşlıq əlaqələrin genişləndirilməsi, enerji məsələləri və nəzərdə tutulan layihələr üzrə müzakirələrin aparılması baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

# ACE platformasında ilk hasilat quyusunun qazılmasına başlanılıb

Azəri Mərkəzi Şərqi (ACE) platformasında ilk hasilat quyusunun qazılmasına başlanılıb.
bp-nin yaydığı məlumatda bildirilir ki, bundan əvvəl cari ilin avqust ayında Bayıl tikinti-quraşdırma sahəsindən dənizə yola salınmış ACE platformasının üst modullarının dənizdə bütün quraşdırma işləri və istismar sınaqları təhlükəsiz şəkildə tamamlanıb.
Quyunun ümumi dərinliyinin 3188 metrədək olacağı planlaşdırılır və bu dərinliyə çatmaq üçün qazma işlərinin təxminən üç ay çəkəcəyi gözlənilir.
"Biz ACE platformasında ilk hasilat quyusunun qazılmasına başlamaqdan çox məmnunuq və sevinirik. Bu, bizə 2024-cü ilin əvvəllərinə nəzərdə tutulmuş ilk ACE neftinin əldə olunmasına imkan verəcək. Qazma proqramının təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsini təmin etmək üçün geniş hazırlıq işləri aparmışıq və bütün bunların əsasında bu sahədə olan təcrübəmiz, innovativ yanaşmalar, eləcə də avtomatlaşdırılmış proseslər və qabaqcıl texnologiyalardan geniş istifadə durur. ACE platformasında bu ilk hasilat quyusunu təhlükəsiz, səmərəli və qrafikə uyğun şəkildə tamamlayacağımıza inanırıq", - deyə bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz vurğulayıb.



# "Qiymət manipulyasiyasına yol verən bazar subyektlərinə qarşı nəzarət tədbirləri gücləndiriləcək"

"Daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması istiqamətində aidiyyəti qurumlarla birgə "Qiymət İzləmə Sistemi"nin tətbiqi ilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən subyektiv səbəblərə (rəqabət pozuntuları, bazarların bölüşdürülməsi və qiymət manipulyasiyasına) yol verən bazar subyektlərinə qarşı nəzarət tədbirləri gücləndiriləcək və ciddi tədbirlər görüləcək".
Bunu Baş nazir Əli Əsədov Milli Məclisin dekabrın 5-də keçirilən iclasında deyib.



O qeyd edib ki, Rəqabət Məcəlləsinin qəbul olunması da bu proseslərə təkan verəcək.
**"Büdcə müzakirələri zamanı qaldırılan bütün məsələlər hökumət və aidiyyəti qurumlar tərəfindən diqqətə alınacaq, qeyd edilən problemlərin həlli istiqamətində mümkün olan bütün zəruri tədbirlər görüləcək",** - deyə o əlavə edib.

# Bir ömür xalqın xidmətində...





***"Sağlamlıq hər şey deyil, amma sağlamlıq olmadan da hər şey heçnədir".*** Alman filosofu Artur Şopenhauerun ifadə etdiyi bu fikirlərdə çox böyük məna var. Lakin insanı dərin düşüncələrə qərq edən bu cür fikirləri, sözün həqiqi mənasında duymaq üçün həm də onun icrası naminə çalışmaq lazımdır. Yalnız dahi şəxsiyyətlər, böyük düha sahibləri belə dərin fikirləri duyaraq, həm özü, həm də bütün cəmiyyət üçün onun icrasına çalışar, xalqın xilaskarı olmağı bacarar. Ulu Öndər Heydər Əliyev kimi...

Müasir Azərbaycan dövlətinin bütöv bir inkişaf dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. O, bütün həyatı boyu xalqının xoşbəxtliyi, əmin-amanlığı və firavanlığı naminə çalışmışdır. Təsadüfi deyildir ki, bu gün müxtəlif sahələrdə tədqiqatlar aparan mütəxəssislər Heydər Əliyevin məhz həmin sahəyə daha çox diqqət ayırdığını qeyd edirlər. Bu isə Ulu Öndərin hər bir sahəyə dərin diqqət və qayğısının, bütün sahələrin inkişafını həmahəng sürətdə həyata keçirdiyinin bariz göstəricisidir.

Azərbaycanın daxili qlobal sarsıntılarla üz-üzə olduğu bir zamanda hakimiyyətə gələn Heydər Əliyev müstəqil dövlətçiliyimizin qorunması naminə ciddi addımlar atmış, millətin genefondunun qorunması, sağlamlığının mühafizəsi naminə çoxşaxəli fəaliyyət göstərmişdir. Bu gün müasir tariximizin qürurlu səhifələrinin müəllifi olan Ümummilli Lider Heydər Əliyev bütün digər sahələrlə bərabər, səhiyyə sahəsində də təməli qoyulan böyük uğurların memarı və qurucusudur.

Heydər Əliyevin Azərbaycan səhiyyəsinə, tibb elmi və insanların sağlamlığına, ölkədə savadlı kadr potensialının formalaşmasına diqqət və qayğısının nəticəsi idi ki, bu sahədə mövcud problemlərin həllinə məhz səhiyyə sahəsində qanunvericilik bazasının möhkəmləndirilməsi ilə başladı. Ölkədə səhiyyənin gələcək inkişaf istiqamətlərini müəyyən edən və bu sahədə perspektiv nailiyyətlərin təməli sayılan "Sağlamlıq Məcəlləsi" məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1969-cu ilin dekabrında Azərbaycan Respublikası Ali Sovetinin VII Sessiyasında qəbul olunmuşdur.

***"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir",*** - deyən Ulu Öndərin diqqət və qayğısının nəticəsi olaraq bu sahədə ciddi kompleks tədbirlər görüldü. Azərbaycan səhiyyəsinin köhnə prinsip və qaydalarını dəyişərək, bu sahədə ciddi tərəqqiyə nail olmaq sahəsində Heydər Əliyevin göstərdiyi əzm qısa müddətdə öz nəticəsini verməyə başladı. İnsanların sağlamlığına ilk növbədə cəmiyyətin sağlamlaşdırılması prinsipi ilə yanaşan Ulu Öndər səhiyyə sahəsində özbaşınalığı, hərc-mərcliyi aradan qaldıraraq, korrupsiya hallarına qarşı ciddi addımlar atdı, həmçinin bu sahədə tikinti və yenidənqurma işləri əsaslı mərhələyə keçdi. Uroloji Kliniki Xəstəxana, Diaqnostika Mərkəzi, Neyrocərrahiyyə Mərkəzi, Toksikoloji Mərkəz kimi yeni səhiyyə ocaqları, poliklinikalar inşa edildi, yararsız binalar yeniləri ilə əvəz olundu, onların ən müasir avadanlıqlarla təchiz olunması həyata keçirildi, səhiyyənin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində əsaslı işlər görüldü.

Heydər Əliyev çox fenomenal bir şəxsiyyət idi. Onun haqqında dünyanın aparıcı ürək-damar cərrahlarından olan Dr.Murat Tuzcunun fikirləri çox maraqlıdır. ***O qeyd edir ki, "xəstə-həkim münasibətlərində zənn edilir ki, yalnız həkim xəstəyə çox şey verir. Halbuki, həkim də bacarırsa, xəstədən öyrənir. Sayın Əliyev kimi qüvvətli, bu qədər özəllikləri olan bir lideri yaxından görüb tanımaq, - təbii ki, onun buna imkan verməsi də vacibdir...***

***...O, çox cəzbedici şəxsiyyət idi. Bu insanın heç tanınmadığı bir salona, – dünyada elə bir salonun olmadığını zənn edirəm, - daxil olarkən bir qüvvənin, fərqliliyin, şəxsiyyətin daxil olduğu hiss edilirdi."*** Bu fikirlər Heydər Əliyev əzəmətini və böyüklüyünü bir daha gözlər önünə gətirir. Məhz Ulu Öndərin uzaqgörənliyinin nəticəsi idi ki, O, səhiyyə sahəsində aparıcı xarici mütəxəssislərin diqqətini ölkəyə cəlb etməyə, qarşılıqlı əməkdaşlıq mühiti formalaşdıraraq, ölkə səhiyyəsindəki durğunluğu aradan qaldırmağa, mötəbər beynəlxalq tədbirlərin ölkədə təşkilinə və azərbaycanlı gənclərin bu sahədə biliklərini təkmilləşdirmək və daha yaxşı təhsil almaları üçün xaricə göndərilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışırdı. Bütün bunların nəticəsi olaraq isə ölkədə getdikcə tibbi kadr çatışmazlığı sahəsində problemlər aradan qaldırılır, onların mövcud bilik və bacarıqlarının təkimilləşdirilməsi istiqamətində ciddi işlər görülürdü. Elə 1998-ci ildə Azərbaycan Tibb Universitetinin yeni tədris binasının açılması da bu sahədə atılan mühüm addımlardan idi.

***"Sizin peşəniz elə bir peşədir ki, hər bir insana lazımdır və dünyanın hər bir yerində lazımdır. Bu, sizin kimi adamlar üçün böyük xoşbəxtlikdir. Çünki siz hamıya, hər bir vətəndaşa, cəmiyyətə, dövlətə lazımsınız. Ona görə də sizin sahəniz çox dəyərli sahədir, xalq, cəmiyyət, ölkə, dövlət üçün çox vacib sahədir",*** - deyən Ulu Öndərin bu sahəyə diqqətinin nəticəsidir ki, sonralar tibb elmi sahəsində öz nəzəri bilikləri və təcrübi fəaliyyətləri ilə dərin izlər qoyan, səhiyyənin inkişafına dəyərli töhfələr verən bir çox alim və mütəxəssislər yetişdi.

Heydər Əliyevin təşəbbüsü ilə "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında", "Tibbi sığorta haqqında", "Xüsusi tibbi fəaliyyət haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Sanitar-epidemioloji sağlamlıq haqqında" qanunlar qəbul olundu, bir çox xəstəliklərin qarşısının alınması məqsədilə proqramlar işlənib hazırlandı. Bütün bunların sürətli və uğurlu icrası məqsədilə Heydər Əliyev tərəfindən "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə" Sərəncam imzalandı. Tərəddüd etmədən qeyd etmək mümkündür ki, ölkəmizdə hər bir sahədə olduğu kimi, xalqın sağlamlığı üçün keçirilən islahatlar da birbaşa olaraq Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

***Ölkə səhiyyəsinin inkişafı, mövcud problemlərin aradan qaldırılması sahəsində Heydər Əliyevin ömür-gün yoldaşı, həkim oftalmoloq, akademik Zərifə xanım Əliyevanın da böyük xidmətləri olmuşdur. Ulu Öndərə hər zaman mənəvi dayaq, sədaqətli dost olan Zərifə xanım səhiyyə sahəsində mövcud çatışmazlıqlar və uğurlu həllər barədə onunla birgə düşünür, həllinə çalışırdı.***

Zərifə Əliyeva Azərbaycan oftalmologiya elmi sahəsində çox ciddi və fundamental tədqiqatların, tibb elmi sahəsində əldə edilən nailiyyətlərin müəllifidir. Görkəmli oftalmoloq alim ətrafındakı hər kəsə sözün hər iki mənasında nur paylayan, gözlərinə işıq olan ziyalı və parlaq şəxsiyyət olmuşdur. Ölkəmizdə traxomanın xəstəlik kimi ləğvi, elm aləmində peşə oftalmologiyasının əsasının qoyulması və dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi tədqiqat laboratoriyasının yaradılması məhz onun adı ilə bağlıdır. Milli oftalmologiyanın əsasını qoyan və bu sahədə dəyərli elmi ideyaların müəllifi olan Zərifə Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına da qayğıyla yanaşmış, məhz onun birbaşa rəhbərliyi ilə ölkədə gənc alimlər və həkim oftalmoloqlar nəsli yetişmişdir.

"Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Yaşaparıcı yolların fiziologiyası", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" kimi əsərlər dəyərli akademikin zəngin bilik və gərgin əməyi sayəsində ərsəyə gələn əsaslı tədqiqat əsərlərindəndir. Sağlığında olduğu kimi, bu gün də akademik Zərifə Əliyevanın səhiyyə sahəsində qoyub getdiyi dərin izlər əsla silinməmişdir.

Ulu Öndər Heydər Əliyev və akademik Zərifə xanım Əliyevanın Azərbaycanda səhiyyə sistemi sahəsindəki uğurlu nailiyyətləri Əliyevlər ocağında dünyaya göz açan və bu nəslin layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir. Dövlət başçısı ailəsinin başlıca həyat prinsipi hesab olunan xalqa, millətə xidmət və sədaqət amalını hər zaman olduğu kimi, bu gün də yaşadır, bu amala sadiqliyini öz əməlləri ilə əks etdirir. Prezident İlham Əliyev tərəfindən səhiyyə sisteminin uğurlu inkişafı ilə əlaqədar həyata keçirilən tədbirlər, tikinti və yenidənqurma işləri, yeni avadanlıqlarla təchizat, müasir infrasturktur bütövlükdə Azərbaycan səhiyyə sisteminin inkişafına, onun dünya səviyyəsinə uyğunlaşdırılmasına xidmət edir. Onun ***"İnsan sağlamlığı sosial məsələlər arasında ən birinci yerdədir və bu gün Azərbaycanda bu sahədə gözəl nəticələr var"*** fikirləri də bu sahəyə diqqət və qayğısının bariz nümunəsidir.

"Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının yaradılması haqqında", "Azərbaycan Tibb Universitetinin 80 illik yubileyinin keçirilməsi haqqında" sərəncamlar, "2016-2020-ci illər üçün şəkərli diabet üzrə Dövlət Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı", tibb işçilərinin ixtisas səviyyəsinin artırılması Prezident İlham Əliyevin səhiyyə sisteminə və insan amilinə həssas münasibətinin göstəricisidir.

***Xüsusilə, səhiyyə sahəsində əldə edilən uğurlarda, bu sahəyə yönəlik proqramların reallaşdırılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da əvəzsiz xidmətləri vardır. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi layihələrlə respublikada insanların sağlamlığının qayğısına qalır, daim səhiyyə sisteminə öz töhfələrini verir.***

Səhiyyənin inkişafından bəhs edərkən xüsusi olaraq qeyd etmək lazımdır ki, bu sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla, tibb müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi, fəaliyyətin optimallaşdırılması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması məqsədilə icbari tibbi sığortanın geniş vüsət alması üçün böyük işlər görülür. 2018-ci il 20 dekabr tarixində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən TƏBİB (Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi) yaradıldı. Bu qurumun əsas məqsədi əhalinin sağlamlığının qorunması sahəsində həyata keçirilən tədbirlərin effektivliyini artırmaq, səhiyyə sisteminin maliyyə dayanıqlığını və vətəndaşların keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlığını təmin etməkdir. TƏBİB həmçinin tibb müəssisələrinin fəaliyyətini dünya səhiyyəsində geniş yayılmış, həmrəyliyə əsaslanan və əhalinin tibbi yardım almaq hüququnu təmin edən icbari tibbi sığorta sisteminin tələblərinə uyğunlaşdırır, tibbi xidmətlərin təşkili və keyfiyyətinin yüksəldilməsi sahəsində beynəlxalq təşkilatlarla uğurlu layihələr həyata keçirir. Etibarlılıq, ədalətlilik, şəffaflıq, peşəkarlıq və səmərəlilik kimi dəyərlərə xüsusi önəm verən TƏBİB COVİD-19 və 44 günlük Vətən müharibəsi dövründə də ölkə səhiyyəsi sahəsində ciddi addımlar atmış, əsaslı dəstək proqramlarının iştirakçısına çevrilmişdir.

Bu gün Azərbaycanda səhiyyə sistemi dinamik inkişaf edir, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə təqdir olunur. ***"Mən istəyirəm ki, hər bir insan yaxşı yaşasın, hər bir insanın maddi imkanları artsın, uşaqlar yaxşı məktəblərdə oxusunlar, müəllimlər yaxşı məktəblərdə dərs desinlər. Həkimlər gözəl xəstəxanalarda işləsinlər və insanlarımız da sağlam olsunlar",*** - deyən Prezident İlham Əliyev vətəndaşların sağlamlığına göstərilən qayğının gələcək nəsillərin sağlamlığının təminatçısı olduğunu bilir və bu sahədə öz səylərini əsirgəmir, əzmlə çalışır, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi bu işıqlı yolla inamla irəliləyir.

***Mətanət HÜSEYNOVA***

*Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurasının "Bir ömür xidmətinizdə..." mövzusundakı birgə müsabiqəsinə təqdim edilir.*

# Azərbaycandan keçən beynəlxalq nəqliyyat dəhlizlərinin aktuallığı artıb

"Cənab Prezident İlham Əliyev tərəfindən müəyyən olunmuş bir sıra ən vacib prioritet sahələr, o cümlədən, enerji sektoru, nəqliyyat sektoru və tranzit potensialının artırılması, özünüməşğulluq və sosial müdafiənin gücləndirilməsi, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, su təchizatı üzrə layihələrin maliyyələşdirilməsi üçün xarici borcun cəlb edilməsi nəzərdə tutulur". Bunu Baş nazir Əli Əsədov Milli Məclisin dekabrın 5-də keçirilən iclasında deyib.

O qeyd edib ki, son dövrlər regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi logistik zəncirlərin qırılması ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin aktuallığını artırıb.

"Bu baxımdan Orta Dəhliz mühüm əhəmiyyət kəsb edir. Bu dəhlizdə fəal iştirak Azərbaycanın regional ticarət və tranzit qovşağı kimi mövqeyini gücləndirir. Bu isə ölkəmizin Asiya və Avropa üçün strateji tərəfdaş kimi əhəmiyyətini artırır və iqtisadiyyatımızda əlavə dəyərin yaranmasına töhfə verir.

Bütün bunları nəzərə alaraq, dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı" təsdiq edilib", - deyə Baş nazir vurğulayıb.

# Ərzaq təhlükəsizliyi üçün ayrılan vəsait açıqlanıb



"Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi cənab prezident tərəfindən hökumət qarşısında strateji vəzifə kimi qoyulub".

Bunu Baş nazir Əli Əsədov Milli Məclisin dekabrın 5-də keçirilən iclasında deyib.

Baş nazir bildirib ki, 2024-cü ilin dövlət büdcəsində ərzaq təhlükəsizliyi tədbirləri üçün 500 milyon manatdan çox vəsait nəzərdə tutulur.

**"Ölkədə yerli istehsalın özünütəminetmədə rolunun artırılması ilə bağlı tədbirlər həyata keçirilir. Bu baxımdan ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması prioritet istiqamətlərdəndir.**

**Mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi tədbirləri üçün 2024-cü ilin dövlət büdcəsindən 500 milyon manat vəsait ayrılacaqdır.**

**Eyni zamanda Prezidentin ötən ay Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı imzalanmış Fərmanları su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsinə imkan verəcəkdir"**, - deyə Baş nazir əlavə edib.

# Bu məhsullar gömrük rüsumundan azad ediləcək

Azərbaycana müdafiə təyinatlı məmulatların istehsalı üçün gətirilən avadanlıqlar, humanitar yardım kimi gətirilən mallar, ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar avadanlıqlar gömrük rüsumundan azad ediləcək. Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Bu, Milli Məclisin dekabrın 5-də keçirilən plenar iclasında müzakirə edilən "Gömrük tarifi haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb. Həmçinin, dəyişikliyə əsasən, ölkəyə idxal edilən qızıl əşyalarının gömrük rüsumundan azad edilməsi halları müəyyən edilir.



# Yaxın gələcəkdə Azərbaycan "yaşıl enerji" ixracatçısına çevriləcək

"Xəzər dənizinin potensialı tezliklə Azərbaycanı "yaşıl enerji" ixracatçısına çevirə bilər".

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Xəzəryanı ölkələrin Xarici İşlər Nazirləri Şurasının Moskvada keçirilən görüşündə deyib.

"Xəzər dənizi zəngin neft və qaz ehtiyatları ilə yanaşı, külək enerjisi potensialına malikdir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi potensialı 157 geqavat təşkil edir ki, bu da yaxın gələcəkdə Azərbaycanı "yaşıl enerji" ixracatçısına çevirə biləcək", – o bildirib.

Nazirin sözlərinə görə, Azərbaycanda müasir infrastruktur, nəqliyyat və logistika imkanları var və genişlənməkdə də davam edir.

# Fransanın siyasi-hərbi avantüraları sülhün əldə olunmasına maneədir






***Azərbaycanın öz suveren ərazilərinə nəzarəti tam olaraq təmin etməsindən sonra sülhün əldə edilməsi üçün şanslar daha da çoxalıb. Bakı hər zaman olduğu kimi, bölgədə dayanıqlı sülhün bərqərar edilməsi üçün yaranmış bu münbit şəraitdə də sülh gündəliyinin irəlilədilməsində qərarlıdır. Lakin Ermənistan tərəfi sülh prosesinin irəlilədilməsi üçün yaranmış şansdan bəhrələnmək əvəzinə, yenə də müxtəlif məzmunlu manipulyasiyalarla məşğuldur. Hazırda Ermənistan rəhbərliyi sülh sazişindən, münasibətlərin normallaşdırılmasından, sərhədlərin delimitasiyası və demarkasiyasından dəm vurur, 1991-ci il Alma-Ata bəyannaməsinə sadiqliyini bildirir. Amma əməli işə gələndə bütün bunlarla daban-dabana zidd olan davranış nümunələrini ortaya qoyur.***

**Azərbaycan diplomatiyası Fransanı BMT-də məğlub etdi**

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı danışıqların nəticəsiz qalmasının əsas səbəblərindən biri də xüsusən Fransanın Ermənistan hakimiyyətinə təsir və təzyiqləridir. Məlum olduğu kimi, torpaqlarını işğaldan azad edən Azərbaycan hələ 2020-ci ilin 44 günlük müharibəsi zamanı Fransanın əsl simasını tam ifşa etdi. Maskası cırılan Fransanın 2020-ci ilin noyabrından bəri çıxmadığı hoqqalar qalmayıb. Bu ölkənin parlamentinin palatalarında qəbul edilmiş sənədlərin Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmədiyini, beynəlxalq hüquqi qüvvə daşımadığını Fransanın özündə də çox yaxşı anlayırlar.

Fransanın BMT səviyyəsində Azərbaycana qarşı aparmağa çalışdığı qarayaxma kampaniyası da iflasa uğradı. Parisin 44 günlük müharibə dövründə ölkəmizə qarşı BMT-də sənəd qəbul etdirmək cəhdləri də baş tutmadı.

Belə ki, 2020-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra məhz Fransanın təşəbbüsü ilə Təhlükəsizlik Şurası prezidentinin bəyanatının layihəsi hazırlanmış və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Lakin bəyanatın layihəsində TŞ-nin 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrə istinad yer almamışdı. Azərbaycanın milli maraqlarına zidd olan, Ermənistana dəstək ifadə edən bu bəyanatın layihəsi BMT TŞ-də təmsil olunan, Qoşulmama Hərəkatına üzv 7 ölkə - İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadın sayəsində qəbul edilməmişdi. Bu dövlətlər tərəfindən layihəyə BMT TŞ-nin qətnamələrinə istinadın daxil olunması da tələb edilmişdi. Bundan sonra bəyanat layihəsinin müəllifləri rüsvayçılıqla onu geri çəkməyə məcbur olmuşdular.

Ötən ilin sonuna doğru isə Azərbaycan növbəti siyasi-diplomatik qələbəsinə BMT müstəvisində imza atdı. Azərbaycan vətəndaş cəmiyyəti fəallarının Laçın-Xankəndi yolundakı dinc etiraz aksiyası ilə əlaqədar olaraq respublikamızın əleyhinə BMT Təhlükəsizlik Şurasında qətnamə qəbul etdirmək istəyən Fransa bu dəfə də rüsvaçılığa uğradı və hazırladığı riyakar mətni geri götürməyə məcbur oldu. Beləliklə, bu, BMT Təhlükəsizlik Şurasında Azərbaycanın parlaq diplomatik qələbəsi, Fransanın isə növbəti siyasi biabırçılığı oldu.

Azərbaycan diplomatiyası bütün imkanlarından istifadə edərək, Fransanı məhz onun öz meydanında sözün bütün mənalarında məğlubiyyətə düçar etdi. Bu ölkə BMT TŞ-nin daimi üzvü olsa da, qlobal miqyasda özünü nüfuzlu dövlət hesab etsə də, bütün resurslarını işə salmasına rəğmən, hazırladığı riyakar sənədləri bu qurumda qəbul etdirə bilmədi.

***Zəngin və tarixi dövlətçilik ənənələri ilə öyünən Fransa bu cür ədalətsiz və riyakar davranışları nəticəsində özünü gülünc vəziyyətinə saldı. Biz onu da unutmuruq ki, Azərbaycan-Fransa xalqları arasında tarixən gözəl münasibətlər olub. Hələ İkinci Dünya müharibəsində azərbaycanlılar Fransada alman faşizminə qarşı mübarizə aparıblar. Şəkili Əhmədiyyə Cəbrayılovun döyüş yolu Fransa Müqavimət Hərəkatının ən böyük qəhrəmanlıq salnamələrindən biridir.***

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Avropa ilə əməkdaşlıq siyasətinə həm də Fransadan başlayıb. Həmin dövrdən başlayaraq hər iki dövlətin dövlət və hökumət başçıları, parlament sədrləri, nazirləri dəfələrlə qarşılıqlı səfərlər ediblər. Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev Fransaya, Fransanın sabiq prezidentləri J.Şirak, N.Sarkozi və F.Olland isə Azərbaycana səfərlər ediblər. Bir müddət öncəyə qədər prezidentlərin qarşılıqlı səfərləri ənənəyə çevrilmişdi. Ayrı-ayrı vaxtlarda Fransanın dövlət başçıları Azərbaycanın, Azərbaycan prezidentləri isə Fransanın ali orden və medalları ilə təltif olunublar. Heydər Əliyev Fondu Luvr, Versal Sarayı, Strasburq Kafedral Kilsəsi və digər tarixi abidələrin bərpasında iştirak edib.

Lakin Fransanın indiki prezidenti E.Makron və bu ölkənin qanunvericilik orqanları onilliklər boyu formalaşmış bu dostluq əlaqələrini öz ədalətsiz və riyakar əməlləri, erməni təəssübkeşlikləri ilə məhv etdilər.

**Ermənistanın silahlandırılması sülhün qarşısının alınmasına hesablanıb**

2023-cü ilin sentyabr ayında Qarabağda erməni separatizminə son qoyulmasından sonra isə Fransanın siyasi dairələri Azərbaycana qarşı yeni siyasi-diplomatik savaş açıblar. Və bu gün sülh üçün yeni imkanlar yarandığı bir şəraitdə Fransa bunun qarşısını almaq üçün müxtəlif siyasi-hərbi avantüralara əl atmaqdadır. Azərbaycana qarşı qərəzli iddialarını davam etdirən, xəstə erməni təfəkkürünün qatı müdafiəçisi rolunda çıxış edən Fransa Azərbycan-Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı müzakirələrdə İrəvanın beynəlxalq hüququn norma və prinsiplərini görməzdən gəlməsi üçün bütün imkanlarını səfərbər edir.



Fransa tərəfindən heç bir zərurət olmadan Ermənistanın silahlandırılması da sülh müqaviləsinin qarşısının alınmasına hesablanıb. Məlum olduğu kimi, 2023-cü ilin noyabr ayında kütləvi-informasiya vasitələrində və sosial şəbəkələrdə Fransanın Ermənistana hərbi texnika göndərməsi ilə bağlı məlumatlar yayıldı. Bununla bağlı Fransa senatının büdcəni mühafizə şöbəsinin hesabatında deyilir ki, Ermənistana ümumilikdə 50 "Bastion" zirehli texnikası tədarük ediləcək. Artıq onlardan 24-ü göndərilib, daha 26-sı isə göndəriləcək.

Xatırladım ki, 2023-cü il oktyabr ayının sonunda Ermənistan və Fransanın müdafiə nazirləri Suren Papikyan və Sebastyan Lekornu Parisdə keçirilən görüşdə hərbi əməkdaşlığın inkişafı üçün yeni imkanlar, o cümlədən İrəvanın müdafiə sistemləri alması barədə razılığa gəliblər. Razılaşmaya görə, Fransa Ermənistana hava hücumundən müdafiə ilə bağlı radarlar və 3 raket kompleksi satmalıdır. Lakin bundan əvvəl Fransa Ermənistana "Bastion" zirehli texnikalarını göndərməyə qərar verib. Əlbəttə ki, bu məsələ ilk növbədə sülh prosesini əngəlləməklə, regionda təhlükəsizliyi ciddi şəkildə təhdid edir. ***"Sözügedən hərbi texnikanın ötürülməsi Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hal-hazırda da təcavüzkar siyasətdən və ritorikadan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək. Özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən Fransanın bu addımları regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur və vəziyyətin gərginləşdirilməsinə xidmət edir"***, - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin bununla bağlı açıqlamasında bildirilir.

8 nəfərlik «Bastion» zirehli avtomobili Afrikanın iqlim şəraitinə uyğun olaraq, məhz bu qitədə və Yaxın Şərqdə olan Fransa silahlı qüvvələrinin bölmələrinin istifadəsi üçün hazırlanıb. Fransa isə hazırda Afrikadan qovulur. Məlum olduğu kimi, son aylarda Fransa bəzi Afrika ölkələrindəki hərbi qüvvələrini çıxarmaq məcburiyyətində qalıb. Çox güman ki, indi həmin ölkələrdəki istifadə olunmuş «Bastion» zirehli avtomobillərini Fransa Ermənistana göndərir. Başqa cür desək, "böyük bacı" qoymağa yer tapmadığı və istismar müddəti bitmiş bu texnikaları Ermənistana göndərməklə həm də başından edir. Bütün konstruksiyaları və texniki parametrləri, xüsusilə isti havaların hakim olduğu Afrikanın iqlim şəraitinə uyğun olan bu texnikaların ərazisi əsasən dağlıq və dağətəyi zonalardan olan Ermənistanda özünü doğrultmayacağı isə indidən aydındır.

Bu texnikaların əvvəlcə Ukraynaya göndərilməsi gözlənilirdi. Lakin texniki xüsusiyyətlərinin qeyri-effektiv olmasına görə Ukrayna onlardan imtina etmişdir.

Fransa özünü dünyada demokratik ölkə kimi göstərməyə çalışsa da, Ermənistanı silahlandırması, regiondakı sülh pozuculuğu kimi əməlləri ilə hələ də müstəmləkəçilik baxışlarına sadiq qaldığını sübut edir. İndiki məqamda isə Afrikadan qovulan Fransa Ermənistan vasitəsilə Cənubi Qafqazda möhkəmlənməyə çalışır. Lakin bundan itirən yalnız Ermənistan olacaq. Çünki Azərbaycan ərazi bütövlüyünü tam bərpa edərək, qarşısına qoyduğu milli məqsədinə çatmışdır.

**Azərbaycan Fransanın müstəmləkəçilik siyasətini bütün platformalarda ifşa edir**

Ümumiyyətlə, ötən üç il müddətində Makron hakimiyyətinin bölgə ilə bağlı cızdığı riyakarlıq trayektoriyası təxminən belə olub: ölkəmizə qərəzli münasibətindən utanmayaraq, Ermənistanla Azərbaycan arasında normallaşma ilə əlaqədar aparılan danışıqlarda Ermənistanın maraqlarını güdən tərəf kimi iştirak etmək istəyib, bu niyyəti baş tutmadıqda riyakarlıq edib. Qoca qitənin məkr dağarcığı olan Fransa gah Avropa İttifaqı missiyası çərçivəsində öz agentlərini sərhədimizə yığaraq binokldan Azərbaycanı müşahidə edib, gah Laçın yolu ətrafında şoular yaradıb, ölkəmizə qarşı informasiya kampaniyası başladıb, gah da Avropa Parlamenti kimi riyakar Qərb təşkilatlarından ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə edib, onlara qərəzli qətnamələr qəbul etdirib.

Azərbaycanın Qarabağda suverenliyini bərpa etməsi və birbaşa Fransadan maliyyələşən separatçıların əl-qolunu qandallaması isə Parisə tərs şillə oldu.

Hazırda Fransa Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda müharibəyə zəmin yaratmaq üçün dəridən, qabıqdan çıxır, yenidən bölgədə savaş olmasını istəyir. Fransanın bu hərəkətləri artıq regionun digər ölkələrində də ikrah doğurur. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da bildirib ki, Qərbin və Fransanın məqsədi Cənubi Qafqazı daha bir qarşıdurma meydanına çevirməkdir: ***"Onlar region ölkələrinin maraqlarına məhəl qoymurlar, bölgədə təhlükəsizliyin, sabitliyin və çiçəklənməsinin təmin olunması üçün heç nə etmirlər. Hesab edirəm ki, Bakı və həmçinin bəzi ölkələr artıq dünyanın digər yerlərində özünün kökdən düşmüş siyasi nüfuzunu Cənubi Qafqazda bərpa etməyə çalışan Parisin zəhlətökənliyindən yorulub"***.

Onu da qeyd edim ki, Fransa dairələrinin ölkəmizə qarşı siyasi-diplomatik hücumlarının, qərəz və böhtan kampaniyalarının qarşısını alan Prezident İlham Əliyevin qətiyyətli və müstəqil siyasəti, güclü Azərbaycan dövlətidir. Hansı ki, bu siyasət indi Fransanın əsrlər boyu yürütdüyü müstəmləkəçilik siyasətinin acı nəticələrini bütün dünyada sürətlə ifşa edir.

Məlumdur ki, Fransa əsrlər boyu Afrika, Asiya, Amerika və Okeaniyada müxtəlif xalqlara, milyonlarla insana qarşı soyqırımı cinayətləri törədib, onların azadlıqlarını əllərindən alıb, dövlətçiliklərini məhv edib. Fransanın əsrlər boyu həyata keçirdiyi müstəmləkəçilik siyasətinin nəticələri sadəcə heyrət doğurur. Məsələn, Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilmiş, bu səbəbdən ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Parisin İnsan Muzeyində müstəmləkə müharibələrində XIX əsrdə qətlə yetirilən döyüşçülərin 18 min ədəd kəllə sümüyü saxlanılır və nümayiş etdirilir. Həmin kəllə sümükləri arasında əlcəzairli döyüşçülərin də kəllə sümükləri var. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbi Fransa tərəfindən hələ də tam yerinə yetirilmir. XXI əsrdə dünyanın çox az dövlətində bu cür təfəkkürə rast gəlmək mümkündür.

Fransız ordusunun törətdiyi qətliamların miqyası və coğrafiyası o qədər genişdir ki, sadalamaqla bitirmək çətindir. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də bu işğalın ağır fəsadlarını hiss edir.

XX əsrdə 30 il ərzində Fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilmişdir. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqları tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir.

Əsrlər keçsə də, təfəkkür dəyişmədiyi üçün Fransa kolonializminin utancverici yeni metodları bu gün də davam etməkdədir. Kolonializm tarixindən əl çəkə bilməyən Fransa Avropadan kənarda, Sakit və Atlantik okeanlarında yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınması üçün hər vəchlə çalışır. Məsələn, Qvadelupa dörd əsrdir ki, Fransanın əsarəti altında yaşayır. Ölkədə müstəqillik tərəfdarı olanlar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır. Fransanın müstəmləkəsi olan Martinikanın təbii sərvətləri talan olunur, əhalisi əsarət altında saxlanılır.

Fransız Qvianası Fransanın müstəmləkəçilik siyasəti nəticəsində maliyyə və iqtisadi cəhətdən asılı vəziyyətə salınıb, qızıl mədənləri talan edilir, qızılı çıxarılaraq Fransaya daşınır.

Korsika adasında müstəqillik istəyənlər Fransa tərəfindən ya həbs edilir, ya da öldürülürlər. Repressiyalar Korsika xalqı üçün adi hala çevrilib. Fransa illər boyu onlara yalan vədlər versə də, Korsikada hakimiyyətə sadəcə Fransanın müəyyən etdiyi adamlar gəlir.

26 mart 2021-ci ildə tarixçilərdən ibarət "Ruandada tutsi qəbiləsinin soyqırımında Fransanın roluna dair hesabata məsul Komissiya" tərəfindən Fransa prezidentinə təqdim edilmiş "Fransa, Ruanda və Tutsinin soyqırımı (1990-1994)" adlı sənəddə 1994-cü ildə Ruandada tutsi qəbiləsinin 800 mindən çox üzvünün qətlə yetirilməsində Fransanın böyük məsuliyyət daşıdığı vurğulanmışdır.

**Prezident İlham Əliyevin məktubu BMT-nin rəsmi sənədi kimi yayılıb**

Fransanın müstəmələkə siyasətinin acı nəticələri barədə çoxlu faktlar göstərmək olar. Bütün bunları hazırda qlobal səviyyədə ifşa edən isə Azərbaycandır. 2023-cü il oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: insan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda beynəlxalq konfrans Fransanın müstəmləkəçilik siyasətinin ifşasına xidmət edən mühüm beynəlxalq konfrans oldu.

Prezident İlham Əliyevin beynəlxalq konfransın iştirakçılarına məktubunda deyilir: ***"Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən, kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır.***

***Ümumiyyətlə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmişdir, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur"***.

Məktubda o da qeyd olunur ki, Fransa həm də dünyada ən çox mina istifadə etmiş ölkələrdən biridir: ***"Ancaq Əlcəzair ərazisində 5 milyondan artıq mina basdırılmışdır. Nəticədə Azərbaycan kimi Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasında ön yerlərdən birini tutur. Bu siyahıda Fransadan sonra onun yaxın müttəfiqi Ermənistan gəlir"***.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin beynəlxalq konfransın iştirakçılarına bu məktubu BMT-nin rəsmi sənədi kimi yayılıb. Göründüyü kimi, Azərbaycan Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda gərginlik yaratmaq istəyən, sülh prosesinə maneçilik törədən Fransanın əsrlər boyu törətdiyi və bu gün də davam etdirdiyi cinayət əməllərini bütün beynəlxalq tribunalarda və platformalarda ifşa edir.

Fransa kimi müstəmləkəçi dövlət həm də bu gün Ermənistanın qatı təəssübkeşinə çevrilib. Bu mənada Fransadan müsbət, pozitiv və ədalətli davranış gözləməyə dəyməz. Ən əsası Azərbaycan heç zaman imkan verməyəcək ki, neokolonialist ölkə Cənubi Qafqaza soxulub, buranı yenidən müharibə meydanına çevirsin.

**Ziyad SƏMƏDZADƏ,**
**akademik**

# Али Асадов об инфляции, валютных резервах и Карабахе



В Азербайджане сохранилась макроэкономическая стабильность, снизился темп инфляции, сказал премьер-министр Азербайджанской Республики Али Асадов на сегодняшнем заседании Милли Меджлиса.
Асадов отметил, что стратегические валютные резервы Азербайджана составили 68,3 миллиарда долларов США, что составляет 97 процентов ВВП.
«В результате антиинфляционных мер правительства и регулирования курсовой устойчивости темпы инфляции снизились. Прогнозируется, что в 2024 году инфляция будет однозначной. Меры по предотвращению и поддержанию инфляции на приемлемом уровне будут продолжены», - заявил он.
Премьер также сообщил, что в течение трех лет после победы на восстановительно-строительные работы в Карабахе и Восточно-Зангезурском экономическом районе из государственного бюджета было выделено 12 миллиардов манатов, а в государственном бюджете на 2024 год на эти цели предусмотрено 4 миллиарда манатов.
Он отметил, что для реализации I Государственной программы по Большому возвращению в 2022-2026 годах потребуется в общей сложности около 30,5 млрд манатов.
Асадов напомнил о старте начального этапа процесса возвращения по I Государственной программе по Большому возвращению. По его словам, до 2026 года на освобожденные земли планируется переселить 34 500 семей, или 140 тысяч граждан. До конца текущего года ожидается переселение дополнительно 215 семей. Хочу особо отметить, что в бюджете предусмотрено более 50 миллионов манатов на местные расходы территорий Карабахского экономического района - Ханкенди, Агдере, Ходжалы, Ходжавенд и освобожденных от оккупации районов и городов в целом», - заявил он.

# МИД Азербайджана ответил Армении

Министерство иностранных дел Азербайджана прокомментировало заявление армянского внешнеполитического ведомства от 4 декабря 2023 года. В комментарии азербайджанского МИД говорится: «Категорически отвергаем заявление Министерства иностранных дел Армении от 4 декабря 2023 года, в котором говорится о гибели армянского военнослужащего в результате якобы открытого азербайджанской стороной огня».
МИД Азербайджана напоминает, что Минобороны Азербайджана также «опровергает данное обвинение, носящее дезинформационный и клеветнический характер, и заявляет, что информация, распространяемая армянской стороной, не соответствует действительности».
В комментарии указывается, что «армянская сторона, более 70 дней оттягивающая ответ на предложения по мирному договору, этими заявлениями наносит ущерб процессу нормализации».
«Армянская сторона подобными заявлениями преследует цель создать искусственную напряженность в приграничных районах и привлечь внимание третьих стран. Со своей стороны Азербайджан продолжит свои миротворческие и созидательные усилия на постконфликтном этапе и будет решительно препятствовать любым шагам, направленным против этого процесса», - говорится в комментарии.

# Франция втягивает Армению в новую войну



Как уже сообщалось, Франция изучает возможности уже в ближайшее время поставить Армении артиллерийские системы «CEASAR». В частности, этот вопрос упоминается в рекомендации Сената правительству Франции. Законодательный орган Пятой республики порекомендовал Кабинету министров как можно скорее изучить вопрос поставки Армении систем «CAESAR» с учетом эффективности этой техники, а также открывающихся в 2024 году новых производственных мощностей компании Nexter, производящей эти артиллерийские установки.
Согласно сообщению французского Сената, Ереван недавно подписал заказ на три радарные установки GM200 от компании «Thales», а также ведет переговоры о поставках зенитно-ракетных комплексов MISTRAL-3.
Одновременно сообщается, что 24 бронемашины типа «Bastion», которые производит французская компания «Arquus», уже доставлены в Армению. За первой партией последуют еще 26 бронемашин этого типа, которые в настоящее время находятся в стадии производства. «Власти Франции инициировали поставку в Армению оборонительного оружия, - отмечается в сообщении Сената. – Но, как показала война в Украине, различие между оборонительными и наступательными вооружениями на самом деле не очень практично. Давайте не будем повторять те же ошибки и задерживать поставку оборудования, которое было бы необходимо с самого начала. Именно поэтому мы должны оперативно реагировать на все запросы властей Армении, особенно относящихся к их потребностям в артиллерии».
Отметим, что соглашения о поставке оружия для Армении были достигнуты в октябре 2023 года в Париже на встрече министра обороны Франции Себастьена Лекорню с его армянским коллегой Суреном Папикяном.
И если раньше Франция неизменно заявляла, что предоставит Армении только «оборонительное вооружение», необходимое для отражения возможной агрессии со стороны Азербайджана, то теперь ситуация изменилась. Ибо артиллерийские системы «CEASAR», которые французы собираются отправить в Армению, никак не назовешь «оборонительным оружием» - такие системы используются как один из основных компонентов при подготовке атакующих операций.
Другими словами, во Франции уже думают не только о повышении уровня обороноспособности Армении, но и предпринимают конкретные шаги для подготовки этой страны к реваншу в будущей войне с Азербайджаном.
Напомним, что ранее официальный Баку резко отреагировал на военно-техническое сотрудничество Франции и Армении. Президент Ильхам Алиев недвусмысленно указал, что если на Южном Кавказе будет спровоцирована новая война, ответственность за это ляжет на Францию.
По мнению аналитиков, реальная цель Армении сводится к тому, чтобы максимально затянуть переговорный процесс, выиграть время и восстановить разрушенный Азербайджаном военный потенциал, что позволит ей, как считают в Ереване, занять более сильную позицию на последующих переговорах.

**Источник: haqqin.az**
**4 декабря 2023**

# «Беларусь была, есть и будет надежным партнером для Китая»



Об этом Президент Беларуси Александр Лукашенко заявил 4 декабря на переговорах в Пекине с Председателем КНР Си Цзиньпином.
«Рад в дружеской обстановке обсудить с Вами актуальные вопросы сотрудничества. И, как это всегда было между нами, высказать свою точку зрения на те или иные проблемы международных отношений. Развитие всестороннего и всепогодного стратегического сотрудничества Беларуси и Китая определено единством наших идеологий и самой логикой мировых событий и процессов, которые происходят сегодня, - сказал Александр Лукашенко. - Наша встреча 1 марта (2023 года. - Прим.) стала во многом судьбоносной и задала динамику на весь год. С марта организовано более 120 взаимных визитов. Это разные визиты. И, что больше всего радует, - это визиты, которые связаны с производством, торгово-экономическими отношениями».
Глава белорусского государства подчеркнул, что историческое повышение уровня отношений придало мощный импульс углублению традиционных направлений, дало старт новым векторам и механизмам сотрудничества.
«Беларусь была, есть и будет надежным партнером для Китая. Думаю, уже никого в Китае в этом не надо убеждать. Все это было на моих глазах в течение последних 30 лет, и даже больше: в первый раз я приехал в Китай, будучи депутатом парламента», - заявил белорусский лидер.
Александр Лукашенко также отметил многолетнее знакомство с Си Цзиньпином и совместную работу над развитием двусторонних отношений.
«У нас большой опыт, мы знаем, что нужно нашим странам. И мы очень много в этом плане сделали», - сказал Президент Беларуси.
«Мы давно определились, что мы будем сотрудничать, жить в дружбе с Китаем. Как я уже сказал, этой дружбе более 30 лет. И с этого пути мы ни разу не свернули ни влево, ни вправо», - подчеркнул Президент.
Президент Беларуси во время переговоров также заявил о поддержке выдвинутой ранее китайским лидером концепции построения Сообщества единой судьбы человечества.
«Вы только что сказали про «Пояс и Путь». Я давно для себя сделал вывод, что «Пояс и Путь» - это, как Вы сказали, уже не концепция сегодня. Это уже практика. Реализуемая. И никто сегодня с этим не может спорить, и никто не может найти даже мелочь для того, чтобы подвергнуть критике. Самое главное, что целью Вы определили единую судьбу человечества. В отличие от западных стран, которые пытаются разрубить все на части, Вы поставили единую цель для всех. Кто может спорить с этим? Никто. Мир будет за это благодарен Великому Китаю», - сказал Глава белорусского государства.
«Мы очень заинтересованы, чтобы Китай был мощной державой, чтобы Китай развивался. И в этом не только наш интерес - это интерес всей планеты, потому что здесь (в Китае. - Прим.) живет огромное количество талантливых трудолюбивых людей», - добавил Александр Лукашенко.
Председатель КНР Си Цзиньпин в свою очередь заявил, что китайская сторона готова вместе с белорусскими партнерами укреплять стратегическое взаимодействие во имя создания Сообщества единой судьбы человечества.
«Мой большой друг, очень рад еще раз Вас видеть. В рамках Вашего государственного визита в Китай в конце февраля и начале марта сего года мы вышли на важные договоренности в пользу динамичного развития китайско-белорусских отношений. На каждом этапе у нас получаются новые договоренности. В течение года укрепляется политическое взаимодоверие, международное взаимодействие. Налицо новые результаты сотрудничества в рамках инициативы «Пояс и Путь», - сказал китайский лидер.
Председатель КНР констатировал, что если 10 лет назад инициатива «Пояс и Путь» являлась концепцией, то теперь к сотрудничеству в ее рамках присоединились более 140 стран и международных организаций.
«Для Китая сохранение стабильности и долгосрочного развития очень важно. И мы получили большие успехи в этой работе. В современном мире происходят титанические перемены, возникают новые риски и вызовы. Многое из происходящего для нас является неожиданным. Китайская сторона готова вместе с белорусскими партнерами укреплять стратегическое взаимодействие во имя создания Сообщества единой судьбы человечества», - заявил китайский лидер.

**Источник: https://president.gov.by**

# В Дубае обсудили «зеленые возможности» Азербайджана



В рамках 28-й конференции сторон Рамочной конвенции ООН об изменении климата – COP 28 в Дубае при организации Министерства энергетики и участии энергетических компаний состоялось мероприятие на тему «Возможности инвестиций в возобновляемую энергетику в Азербайджане».
Выступая на мероприятии, министр энергетики Парвиз Шахбазов заявил, что государственная политика президента Азербайджана Ильхама Алиева, отдающая приоритет развитию возобновляемой энергетики за счет иностранных инвестиций, превращению освобожденных территорий из серой зоны в зону «зеленой энергии», а Каспия - в центр производства и экспорта «зеленой энергии», также стимулирует приток «зеленых инвестиций»: «В октябре мы с компанией «Масдар» ввели в эксплуатацию первую и крупнейшую в Прикаспийском регионе и СНГ солнечную электростанцию на основе иностранных инвестиций. К 2027 году помимо этой электростанции мощностью 230 МВт компаниями Masdar, ACWA Power, bp, China Gezhouba, Nobel Energy и Baltech будут построены 8 солнечных и ветряных электростанций мощностью более 1,6 ГВт. К 2030 году с целью внутреннего потребления, декарбонизации экономики и экспорта за счет иностранных инвестиций на суше и на море будут реализованы проекты «зеленой энергетики» мощностью более 8 ГВт. Также в 2031-2037 годах с целью производства и экспорта «зеленой энергии», водорода и «зеленого аммониака» мы планируем создать около 19 ГВт мощности в сотрудничестве с международными энергетическими компаниями», добавил министр. Министр также отметил интенсивную работу по экспорту 4 ГВт «зеленой энергии» по коридору зеленой энергии «Каспий - Черное море - Европа» и более 1 ГВт по маршруту Азербайджан - Турция - Европа.
Министр выразил поддержку Азербайджана совместной инициативе «Глобальное обещание по возобновляемым источникам энергии и энергоэффективности».
Сообщалось, что интеграция 2 ГВт «зеленой энергии» в энергосистему Азербайджана к 2027 году увеличит долю возобновляемой энергии до 33%. В результате можно будет раньше и с опережением достичь целевого показателя в 30% к 2030 году.

# Milyonlarla insanın son ümidi - orqan transplantasiyası

***Ümumdünya Səhiyyə Təşkilatının təsnifatına görə transplantasiya qüsurlu orqanın transplantasiyası və sağlam orqan ilə dəyişdirilməsidir. Qaraciyər, böyrək və ürək çatışmazlığının müalicəsində transplantasiya son ümid hesab edilir. Transplantasiya bu gün elmtutumlu və dinamik inkişaf etməkdə olan müasir tibb texnologiyalarından biridir.***



Gömrük Hospitalının Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımi Azərbaycan Respublikasında ilk dəfə qaraciyər transplantasiyasını icra etmiş, bu günə qədər 1000-dən artıq orqan transplantasiyası əməliyyatını uğurla həyata keçirmişdir. Azərbaycanda icra olunan böyrək transplantasiyası əməliyyatlarının 90%-ni də Dr. Mircəlal Kazımi həyata keçirib.

Bu gün minlərlə xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələr dializ aparatlarına qoşulmaqla, hər gün böyrək köçürülməsi ümidi ilə yaşayır. Eyni zamanda, yüzlərlə insan xroniki qaraciyər xəstəliklərindən əziyyət çəkir və çox təəssüf ki, bu xəstələrin böyük bir qismi donor tapmadan həyatını itirir. Donor gözləyən xəstələrin bir qismi də sağalmaq ümidi ilə xarici ölkələrə üz tuturlar.

***Hazırda Azərbaycanda orqan transplantasiyası ilə bağlı vəziyyət necədir? Bu barədə söhbətləşmək üçün Gömrük Hospitalının Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru, peşəkar uzman həkim, öz işinin ustası Dr. Mircəlal Kazımiyə müraciət etdik.***

**- Doktor, orqan transplantasiyası nə üçün lazımdır?**

- Sağlamlıq bəşər övladına bəxş edilən ən böyük nemətdir. Orqan transplantasiyası sübutlu təbabətə əsaslanan bütün digər müalicə üsulları effekt vermədikdə insan həyatının xilas edilməsi və sağlamlığının bərpası üçün yeganə şansdır.

**- Ölkəmizdə orqan transpantasiyasına nə vaxtdan başlanıb və onun indiki vəziyyəti barədə nə deyə bilərsiniz?**

- Azərbaycanda ilk dəfə orqan transplantasiyası 1971-72-ci illərdə akademik Mirməmməd Cavadzadə tərəfindən icra olunan böyrək transplantasiyası əməliyyatı olmuşdur.

Hazırda ölkəmizdə canlı transplantasiya proqramı işləndiyi üçün yalnız canlı qohum donorlardan alınan qara ciyər və böyrək transplantasiyası əməliyyatları icra edilir. 2008-ci ildən sonra isə mən deyərdim ki, Azərbaycanda orqan transplantasiyası dövrü yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu, məhz azərbaycanlı həkimlərin komandaya qoşulması sayəsində baş verdi.

Azərbaycanda biz ilk dəfə bu əməliyyatlara başlayandan sonra xəstələrin bizə inamı artdı. Onlar hətta donorlar da tapıb gətirir və sağlamlıqlarını bizə etibar edirdilər. Mən qürur duyuram ki, indi Azərbaycanın tibb tarixində bizə müraciət edən və inanan xəstələr vardır. Bu, şəxsən mənim üçün böyük uğurdur ki, mən Azərbaycan tibb tarixində ilk dəfə qaraciyərin köçürülməsini müvəffəqiyyətlə icra etdim və biz ilk dəfə Azərbaycan həkiminə böyük inamın yaranmasını əldə etdik.

**- Bu günə qədər icra etdiyiniz orqan transplantasiyası əməliyyatlarının hamısı uğurlu olubmu?**

-Təbii ki, mən təkcə orqan transplantasiyası ilə məşğul deyiləm. Mən həm də ümumi cərraham, ona görə də biz ən mürəkkəb sayılan qaraciyər, böyrək, mədəaltı vəzi, öd yolları üzərində aparılan ümumi cərrahi əməliyyatları Gömrük Hospitalında uğurla icra edirik. Bunun üçün zəruri olan həm insan resursu, həm texniki imkanlar mövcuddur, hər işdə Dövlət Gömrük Komitəsinin dəstəyini görürük. Əməliyyatların uğurla başa çatması üçün reanimasiya və digər yardımçı xidmətlərin peşəkar işini qeyd etmək istəyirəm. Bizim hospitalda icra olunan ən mürəkkəb cərrahi əməliyyatlar peşəkarlardan ibarət komandanın birgə işidir.

Bizə müraciət edən xəstələr arasında ağır vəziyyətdə və gecikmiş fazada xəstəxanaya çatdırılan xəstələr olur. Təsəvvür edin, əməliyyat edirəm, qaraciyəri sirroza uğramış xəstənin hər hansı orqanı tamamilə yerindən çıxarılır, onu başqa orqanla əvəz edirik və ya xəstəyə yeni böyrək köçürülür. Qara ciyər transplantasiyası proqramımız Avropa Qaraciyər Transplantasiyası Reyestri tərəfindən tanınıb və biz ora üzv qəbul olunmuşuq. Böyrək transplantasiyası əməliyyatlarımız Amerika Böyrək Transplantasiyası Assosiasiyasının nəticələri ilə uyğundur və biz bununla fəxr edirik.

**- Mircəlal həkim, ciddi və riskli sahədə işləyirsiniz. Nəticələriniz barədə nə deyə bilərsiniz?**

- Lazımi və zamanında müayinələrə getmək çox vacibdir. İstər böyrək, istərsə də qaraciyər transplantasiyası nəticələrimiz dünya mərkəzlərinin nəticəsi kimidir. Məhz buna görə də European Liver Transplant Registry Mərkəzinə qəbul olunmuşuq.

Gömrük Hospitalında fəaliyyət göstərdiyim illər ərzində bir çox ilklərə imza atmışıq. Qazandığımız nailiyyətlər arasında bəzilərinin adlarını çəkmək istərdim. İlk dəfə olaraq 7 aylıq körpəyə qaraciyər transplantasiyası, eyni seansda bir xəstəyə həm qaraciyər, həm də böyrək transplantasiyası, bir xəstəyə qaraciyərin iki payı transplantasiyasını, bir xəstəyə eyni seansda açıq ürək və qaraciyər transplantasiyası, bir xəstəyə eyni seansda açıq ürək və böyrək transplantasiyası, çarpaz qaraciyər və böyrək transplantasiyası əməliyyatları məhz bizim tərəfimizdən icra olunub.

**- Orqan transplantasiyası üçün donorlar necə axtarılır və xəstə onu hansı müddət ərzində gözləməli olur? Təcili donor lazım olduqda onları necə tapırsınız?**

- Bu, tək bizi yox, bütün dünyanı maraqlandıran aktual məsələdir. Çünki xəstələrin sayı getdikcə artır, donorların sayı isə xəstələrin sayı ilə tərs mütənasibdir. Hal-hazırda yalnız qohum olan canlı donorlardan orqan transplantasiyalarını edirik və düşünürəm ki, yaxın gələcəkdə qanunvericilikdə orqan transplantasiyası ilə bağlı baş verən dəyişikliklər donorların sayının artmasına imkan verəcək. Hazırda Milli Məclis tərəfindən qanun layihəsi işlənilir, orqan transplantasiyası haqqında qanuna dəyişikliklər olacaq.

Bütün orqan çatışmazlığından əziyyət çəkən yetəri qədər xəstə var. Təəssüf ki, biz hazırda yalnız canlı donorlu orqan transplantasiyası etdiyimizdən, qaraciyər və böyrək transplantasiyası ilə kifayətlənirik. Bizim də digər dövlətlərdəki kimi meyit orqanının istifadəsinə ehtiyacımız var. Düşünürəm ki, meyit orqanlarından istifadə edəcəyimiz günlər yaxındadır. Mən buna şəxsən inanıram, çünki cənab Prezident İlham Əliyev tərəfindən yenilənmiş qanun qüvvəyə minib və bu iş üzrə fəaliyyət planı var.

**- Orqan transplantasiyası əməliyyatının icrası bütün dünyada çox bahalı prosedurdur. Əhalinin hər təbəqəsindən olan vətəndaşlarımızın bu əməliyyata imkanı yoxdur. Bu barədə nə deyə bilərsiniz?**

- Çox şükürlər olsun ki, son vaxtlar əhalinin bu əməliyyatlara əlçatanlığını təmin etmək üçün Azərbaycanda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin xidmətlər zərfinə qaraciyər və böyrək transplantasiyası əməliyyatları da daxil edilib. Hazırda Hospitalımızın Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin yüksəkixtisaslı cərrah-transplantoloqlar komandası tərəfindən 2023-cü ilin avqust ayından etibarən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin xidmətlər zərfi çərçivəsində qaraciyər və böyrək transplantasiyası əməliyyatları müvəffəqiyyətlə icra olunur.

**- Doktor, maraqlı müsahibəyə görə təşəkkür edirik.**

**Müsahibəni apardı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

# Moody`s Çinin kredit reytinqini aşağı salıb

Beynəlxalq reytinq agentliyi "Moody's Investors Service" Çinin kredit reytinqi üzrə proqnozunu sabitdən mənfiyə endirib. "Bloomberg" agentliyinin hesabatına əsasən, ölkənin suveren istiqrazları üzrə uzunmüddətli proqnoz A1 səviyyəsində saxlanılıb. Reytinq agentliyi ÜDM artımının 2026-2030-cu illər arasında orta hesabla 3.8%-dən 2024 və 2025-ci illərdə 4%-ə qədər yavaşlamasını gözləyir.




Oktyabr ayında Çinin Milli Statistika İdarəsi Çin iqtisadiyyatının 2023-cü ilin iyul ayından sentyabr ayına kimi illik müqayisədə 4.9% artdığını bildirib. Daha əvvəl "Moody's" Çinin kredit reytinqini 2017-ci ildə A3-dən A1-ə endirib. Avropa reytinq agentliyi "Scope Ratings" sentyabr hesabatında Çinin suveren borcunun 2027-ci ilə qədər ÜDM-in 100%-ni keçəcəyini bildirib.

# Körfəz ölkələri Qəzzanın bərpası üçün pul ayıracaq



Dohada Körfəz Əməkdaşlıq Şurasının sammitində liderlər Qəzza zolağının bərpası üçün əlavə 1,6 milyard dollar ayırmağı vəd ediblər. Bu barədə təşkilatın katibliyinin saytında dərc olunan məlumatda bildirilib.

"Sammit iştirakçıları 2009-cu ildə yaradılan Qəzza zolağının Yenidənqurulması üzrə Əməkdaşlıq Şurasının Proqramı çərçivəsində birbaşa ikitərəfli yardıma əlavə olaraq daha 1,646 milyard dollar ayırmağı vəd ediblər", - bəyanatda qeyd olunub.

Liderlər Qətər, Misir və ABŞ-ın İsrail və HƏMAS arasında humanitar fasilə ilə bağlı razılaşmalara səbəb olan vasitəçilik səylərini də yüksək qiymətləndirib.

# "Apple"ın dəyəri yenidən 3 trln. dolları keçib

"Apple" səhmləri çərşənbə axşamı günü ticarətin sonunda 2.1% bahalaşıb və onların qiyməti 193.42 dollar olub. Nəticədə, şirkətin bazar kapitallaşması avqustun 2-dən bəri ilk dəfə olaraq 3 trilyon dolları ötüb. İndi korporasiyanın bazar dəyəri 3.009 trilyon dollardır.

Xatırladaq ki, "Apple" dünyada bazar dəyəri 1 trilyon dolları keçən ilk şirkət olub. İlin əvvəlindən bəri "Apple" səhmləri demək olar ki, 50% artıb.

Eyni zamanda, sentyabrın 31-də başa çatan son maliyyə ilində şirkətin gəliri və xalis mənfəəti 3% azalaraq müvafiq olaraq 383.3 milyard dollar və 97 milyard dollar təşkil edib və dörd rübün hər birində gəlirdə azalma qeydə alınıb.

# Bakcell-in sponsorluğu ilə "İnnovasiya Sammit"i keçirilir

Ölkənin ən böyük özəl operatoru olan Bakcell "InMerge İnnovasiya Sammiti"nin "Sürət və Telekom partnyoru" olaraq bir daha innovasiyalara öz dəstəyini göstərib.

30 noyabr - 1 dekabr 2023-cü il tarixlərini əhatə edən regionun ən böyük sammiti Bakı Konqres Mərkəzində "PAŞA Holdinq"in təşkilatçılığı, Bakcell şirkətinin aparıcı sponsorluğu ilə ilk günü geridə qoyub. İnnovasiya və yüksək texnoloji yeniliklərə sarsılmaz dəstəyi ilə tanınan Bakcell artıq 3-cü ildir ki, innovasiya tədbirlərinə sponsor olaraq öz dinamik rolunu qoruyur.

Sammitin məqsədi texnologiya sahəsində aparıcı liderləri, şirkətləri, eləcə də innovasiya yönümlü startapları bir araya toplamaq, regionda innovasiya ekosisteminin formalaşmasına dəstək göstərməkdir. Tədbirin ilk günü telekommunikasiya vertikalında Bakcell-in Baş icraçı direktoru Klaus Müller öz bilik və təcrübəsini auditoriya ilə bölüşüb, iştirakçılarla faydalı fikir mübadiləsi aparıb.

"Telekommunikasiya sektorunda daim innovativ həllərlə fərqlənən bir şirkət kimi bu tədbirin "Sürət və Telekom partnyoru" olmaqdan qürur duyuruq. Ötən müddət ərzində ən müasir səs texnologiyası olan VoLTE-ni, yenilənmiş Bakcell tətbiqini abunəçilərin ixtiyarına verərək, telekommunikasiya sektorunda ciddi addımlar atmışıq. Uğurlarımızın nəticəsi olaraq 2023-cü ildə Ookla® şirkəti tərəfindən "Speedtest" mükafatına layiq görülərək, "Azərbaycanın ən sürətli operatoru" adını almışıq. Bakcell olaraq qarşıdakı dövrdə ən qabaqcıl texnologiyaların ölkəyə gətirilməsində genişmiqyaslı fəaliyyətimizi daha da gücləndirəcəyik", - deyə Klaus Müller bildirib.




Ölkənin dörd bir yanında "Ölkənin ən sürətlisi" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.




**Azəri Light və Brent markalı neftin bir barelinin 30 noyabr – 6 dekabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

# Dünyada ilk 4-cü nəsil AES istifadəyə verilib



Çin dünyada ilk 4-cü nəsil atom elektrik stansiyasını (AES) işə salıb.

Bu barədə Çin Xalq Respublikasının Dövlət Energetika İdarəsi məlumat yayıb.

Bildirilib ki, yüksək temperaturlu qazla soyudulan reaktora malik "Shidaowan" qurğusu Şərqi Şandun əyalətində yerləşir. Qeyd olunub ki, AES 168 saat fasiləsiz sınaq rejimində işləyib və rəsmi olaraq kommersiya istismarına verilib.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov,
Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov,
Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov,
Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov,
Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500